**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**ŞƏRAFƏT ARAM qızı BAXIŞOVA**

# MƏKTƏBƏQƏDƏR TƏHSİL PİLLƏSİNDƏ İNKİŞAFETDİRİCİ TƏLİMİN NƏZƏRİ-PRAKTİK ƏSASLARI

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının

**A V TO R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai təhsilin pedaqogikası və metodikası" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmər doktoru,*
*professor,əməkdar müəllim*
**Hikmət Əbdül oğlu Əlizadə**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor*
**Ramiz İbrahim oğluƏliyev**
*psixologiya üzrə elmlər doktoru,*
*professor*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universiteti Pedaqogika və psixologiya kafedrası

Müdafiə «23»yanvar 2017-ci il tarixində saat $14^{00}$- da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan:Az-1000. Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana- İnformasiya Mərkəzində tanış oımaq olar.

Автореферат «_____» ___________ 2017-ci ildə göndərilmişdir..

**Dissertasiya şurasının elmi katibi:** **R.H.Hümbətəliyev,**
*riyaziyyat elmləri doktoru,*
*dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra inkişaf etmiş dünya dövlətlərinə inteqrasiya yolunu tutmuşdur. Bu inkişaf və inteqrasiyaetmə təhsilimizdə də köklü dəyişikliklər etməyi, bu dəyişikliklərin nəticəsində özündə milli və ümumbəşəri dəyərləri üzvi surətdə birləşdirən müasir şəxsiyyət yetişdirən məktəbəqədər müəssisələri, orta ümumtəhsil məktəbləri yaratmağı, təhsil sistemi qurmağı tələb edir. Sözsüz ki, həyata keçirilən əsaslı islahatlar təhsilin məzmununda da dəyişikliklər aparmaqla, onun bütün mərhələ və problemlərini əhatə etməklə, uşaqların qazandıqları bilik və bacarıqlarını onlara əməli vərdişlər aşılanmasına yönəldilməlidir.

Azərbaycan xalqının ümummilli lideri H.Ə.Əliyevin 1999-cu il 15 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş Təhsi sahəsində İslahat Proqramında qeyd olunur ki, "Cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir"[1].

Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri olan təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni yanaşmaların, fəal təlim metodlarının, texnologiyaların tətbiqi və onlardan səmərəli istifadənin təşkili təhsil sistemində ən vacib məsələlərdən hesab olunur. Təhsilin modernləşdirilməsinin məqsədi təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğu üçün təhsilin bünövrəsi sayılan məktəbəqədər təhsilin müasir tələblərə cavab verməsi təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdəndir.

Həqiqətən də məktəbəqədər təhsil bütün təhsil sisteminin bünövrəsidir. Çünki məhz bu mərhələdə uşağın şəxsiyyət kimi formalaşmasının təməli qoyulur. Məktəbəqədər təhsil uşaqların potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq, eləcə də həyati bacarıqların formalaşmasında mühüm rol oynayır və uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir. Ağlın, intellektin inkişaf etdirilməsi

---

[1]Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı // Təhsil xəbərləri. 2009, № 4, s.5-40

ön plana çəkilir. Dünya təhsil sistemində sadəcə bilik, bacarıqlar deyil, şəxsiyyətin inkişaf etdirilməsində dəyərlər, səriştələr də qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəricisi kimi qəbul edilir.

24 oktyabr 2013-cü ildə imzalanmış Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması məsələləri əks olunur və qeyd edilir ki, "...təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir"[1]. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur.

Müasir məktəbəqədər təhsil sistemi daha da genişlənir və inkişaf edir. Məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsinin genişlənməsi və inkişafı, məktəbəqədər təhsilin forma, məzmunca zənginləşdirilməsi ilə bağlıdır.

Deyilənlərdən belə qənaətə gəlirik ki, məktəbəqədər təhsil qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün inkişafetdirici təlimin tətbiqinə böyük ehtiyac vardır.

Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişaf səviyyəsi öyrənmə marağında, biliyə yiyələnmədə, biliyi dərketmə qabiliyyətində özünü göstərir ki, bu da uşağın həyat tərzi və onu əhatə edən mühitdən çox asılıdır.

Təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili birinci növbədə inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Bunun üçün ilk növbədə - uşağın hərtərəfli inkişafını təmin etmək vəzifəsi ön plandadır. Uzun illərin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, ənənəvi təhsil sistemi müəllimyönümlülüyə, məqsədyönümlülüyə, bilikyönümlülüyə, təklifyönümlülüyə əsaslanmış və uşaqlara çox az həyati bacarıqlar aşılamış, təfəkkürü inkişaf etdirməyə yönəlməmişdir.

---

[1]Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi", 2013, 25 oktyabr.

Yeni yanaşmanın mahiyyəti isə ondadır ki, təlim uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün, şəxsi keyfiyyət və qabiliyyətlərin inkişaf etdirilməsinə, həyat üçün zəruri olan bacarıqlarin qazanılmasına yönəlsin. Bir sözlə uşaqyönümlülüyə,nəticəyönümlülüyə, şəxsiyyətyönümlülüyə, tələbyönümlülüyə əsaslansın. Ənənəvi təhsil biliyə yönəlmişdisə, indi biliklərlə yanaşı səriştəlilik əsas məqsəd kimi irəli sürülmüşdür. Əsas məqsədi yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın bütün sahələrində istifadə etməyi bacaran, milli-mənəvi və ümumbəşəri dəyərlərə yiyələnmiş, fəal, şüurlu, məsuliyyətli, rəqabətədözümlü, konstruktiv şəxsiyyətin yetişdirilməsindən ibarətdir.

Araşdırmalardan belə qənaət hasil olur ki, uşaq bağçalarında inteqrativ təlimə, yeni təlim texnologiyalarının tətbiqinə, müxtəlif fəaliyyət növlərinin əlaqələndirilməsinə, inkişafetdirici təlimin təmin olunmasına lazımınca diqqət yetirilmir. Tərbiyəçilərin bir qismi inkişafetdirici təlimin mahiyyətini dərk etmədiyindən, yaradıcı yanaşma ilə işləyə bilmədiklərindən, digərləri metodik kömək və zəruri ləvazimat əldə edə bilmədiklərindən, başqaları isə laqeydliyi üzündən bu problemə əhəmiyyət vermir. Bəzi yaradıcı tərbiyəçilər səy göstərsələr də nəticə əldə edə bilmirlər. Bunun da səbəbi məktəbəqədər müəssisə rəhbərlərinin, tərbiyəçilərin inkişafetdirici təlim haqqında pedaqoji-psixoloji, nəzəri və praktik biliklərinin kifayət qədər olmaması ilə əlaqədardır.

Təbiidir ki, müxtəlif dövrün nümayəndələri inkişafetdirici təlim anlayışını yaşadığı tarixi dövrün tələbləri baxımından şərh etmiş və müvafiq təkliflər irəli sürmüşlər. Bu mövzunun mürəkkəbliyi və eyni zamanda pozitiv tərəfi pedaqogika və psixologiyanın üzvi və təbii surətdə birləşməsində özünü büruzə verir.Təlim didaktikanın komponentidirsə, inkişaf psixoloji prosesdir.

Apardığımız araşdırmalar göstərir ki, klassik Avropa (Y.A.Komenski, J.J.Russo, İ.H.Pestalossi, İ.F.Herbart və b.) və Azərbaycan maarifçi pedaqoqları (S.M.Qənizadə, F.Ağazadə, F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, Ü.Hacıbəyov və b.) uşaqların hərtərəfli inkişaf etməsi üçün qiymətli fikirlər söyləmiş, öz əsərlərində uşaq tərbiyəsinə və təhsilinə xüsusi fikir verməyin əhəmiyyəti, bu sahədə valideyn və tərbiyəçilərin maariflənməsinə dair tövsiyələr verməklə mühüm xidmətlər göstərmişlər.

Azərbaycanda inkişafetdirici təlim problemi ilə əlaqədar müxtəlif dövrlərdə həm pedaqoqlar (M.M.Mehdizadə, M.Muradxanov, N.Kazımov, B.Əhmədov, Ə.Ağayev, Y.Talıbov, H.Əhmədov, Ə.Paşayev, A.Həsənov,

F.Sadıqov, F.Rüstəmov, A.Abbasov,L.Qasımova, Ş.Əliyeva və b.) həm də psixoloqlar (Ə. Bayramov, Ə.Əlizadə, M.Ə. Həmzəyev, Z.Mehdizadə və b.) maraqlı araşdırmalar aparmışlar.

Sovet dövrünün görkəmli psixoloq və pedaqoqlarından L.S.Vıqotski, L.V.Zankov, V.V.Davıdov, D.B.Elkonin, N.A.Mençinskaya, həmçinin A.K.Dusavitskiy, N.F. Talızina, B.B.Repkin, S.D.Maksimenko və başqaları bu problemi daha dərindən araşdırmış və maraqlı nəticələr əldə etmişlər.

Son dövrlərdə Rusiyada bu problemlə əlaqədar bir sıra dissertasiya səviyyəssində tədqiqat işləri aparılmışdır: O.İ.Prudayeva "İnkişafetdirici təlimin texnologiyası kimi inkişafetdirici təlimin psixoloji və pedaqoji xüsusiyyətləri"[1],Y.A.Vinoqradova "Məktəbəqədər təhsil: inkişafın vəziyyəti və əsas problemləri (sosioloji təhlil)"[2], M.V.Lazareva "Məktəbəqədər təhsil müəssisələrində inteqrativ təlim"[3], S.N.Arxipova "Saxa Respublikasında (Yakutiya) məktəbəqədər və ibtidai təhsil sistemində inkişafetdirici təlim"[4], T.M. Paraniçeva "İnkişafetdirici təlim prosesində 4,5,6 yaşlı uşaqların orqanizminin funksional vəziyyəti və adaptasiya imkanları"[5]və s. tədqiqat işlərində qarşıya qoyulmuş problemin bəzi cəhətləri araşdırılır və göstərilir ki, inkişafetdirici təlim kiçik yaşlı məktəblilərdə fikri əməliyyatların-təhlilin, refleksiyanın və planlaşdırmanın yerinə yetirilməsi ilə əlaqədar yüksək səviyyədə ümumiləşmələr, nəzəri fikri əməliyyatların aparılması üçün əlverişli şərait yaradır, inkişafetdirici təlim uşaqların imkanlarının aktual səviyyəsini, təlim-idraki motivasiyanın yüksək səviyyəsinin formalaşmasını nəzərə alan differensial özünüqiymətləndirmə və iddiaların inkişafını təmin edir.

---

[1] Прудаева О.И. Психолого-педагогические особенности развивающего обучения как технологии развивающего образования. Дисс.канд. психологических наук. Москва: 1997,162 стр.

[2] Виноградова Е.А. Дошкольное образование: состояние и основные проблемы развития (соцологический анализ). Афтореф. дисс. канд. социолог. наук. Екатеринбург: 2001,с.15-16,18 стр.

[3] Лазарева М.В.Интегрированное обучение детей в дошкольных образовательных учреждениях. Дисс. док.пед. наук. Москва: 2003,с.138. 479 стр.

[4]Архипова С.Н.Развивающее обучение в системе дошкольного и начального обучения Республики Саха (Якутия). Афтореф. канд. дисс. пед.наук. Якутск, 2005, 37 стр.

[5]Параничева Е.М.Функциональное состояние организма и адаптационные возможности детей 4,5,6 лет в процессе развивающего обучения. Афтор. канд. биолог. наук. Москва: 2007,21 стр.

Lakin bütün tədqiqat işləri problemlə müəyyən qədər əlaqəli olsa da Azərbaycanda bu problem məktəbəqədər təhsil müəssisələrində dissertasiya səviyyəsində tədqiq edilməmişdir.

Problemin aktuallığını, elmi-praktik əhəmiyyətini və məktəbəqədər təhsil müəssisələri üçün tədqiq edilmədiyini nəzərə alaraq,"Məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzəri-praktik əsasları"mövzusunda tədqiqat aparmaqməqsədə uyğun hesab edilir.

**Tədqiqatın obyekti** məktəbəqədər təhsil pilləsində təlimin təşkilindən ibarətdir.

**Tədqiqatın predmetini** məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzəri və praktik məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi** inkişafetdirici təlimin mahiyyətini və məzmununu müəyyənləşdirməkdən, problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu araşdırmaqdan, məktəbəqədər müəssisələrdə mövcud vəziyyəti öyrənməkdən, məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin məzmununu və təşkili xüsusiyyətlərini müəyyənləşdirməkdən, inkişafetdirici təlimin uşaq şəxsiyyətinin inkişafına təsirini üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri:**

-inkişafetdirici təlimin mahiyyətini, məqsəd və vəzifələrini müəyyənləşdirmək;

-problem baxımından nəzəri-pedaqoji ədəbiyyatı təhlil etmək;

-inkişafetdirici təlim üzrə məktəbəqədər təhsil müəssisələrinin təcrübəsini öyrənmək;

-məktəbəqədər təhsil proqramının (kurikulumunun) tətbiqi ilə bağlı pedaqoji prosesin təşkilinin nəticələrini müəyyənləşdirmək;

-pedaqoji prosesin səmərəli təşkilinin inkişafetdirici təlim mühitinə müvafiq olduğunu müəyyənləşdirmək;

-uşağın məktəbəqədər təhsil müəssisələrinə adaptasiya edilməsində inkişafetdirici təlimin rolunu, onun məzmununu və təşkili xüsusiyyətlərini müəyyənləşdirmək;

-məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin səmərliliyini dəyərləndirmək və qiymətləndirmək məqsədilə diaqnostik metodikanı işləmək, eksperimentin təşkili və nəticələrini ümumiləşdirmək.

**Tədqiqatın fərziyyəsi:**

-məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlim humanizm prinsipləri əsasında qurularsa,

- məktəbəqədər yaşlı uşaqların fəaliyyətində idraki və tərbiyəvi potensialı səmərəli istifadə edən yeni təlim formalarının yaranmasını nəzər-

də tutan didaktik sintezə əsaslanarsa,

-inkişafetdirici təlim müasir təhsilin ümumi tendensiyalarını-ümumbəşəri, milli, reqional; humanizm, demokratiklik, məzmunun variativliyi və inteqrasiyanı mədəniyyətyönümlülüyü, təbiətəmüvafiqliyi əks etdirərsə,

-tərbiyəçi və uşaq arasında subyekt-subyekt münasibətləri üstünlük təşkil edərsə,

- motivasiyanın əsasını idraki motivlər təşkil edərsə və təqdim olunan modelin reallaşması səmərəli nəticə verər.

**Tədqiqatın metodları:** nəzəri təhlil,müşahidə, müsahibə, anket sorğusu,məktəbəqədər təhsil müəssisələrinin təcrübəsinin öyrənilib ümumiləşdirilməsi, pedaqoji eksperiment.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin öyrənilməsi, dərk edilməsi və dəyişdirilməsi məqsədilə tətbiq edilən nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ikişafetdirici təlim üzrə məktəbəqədər təhsil müəssisələrində imkanlar müəyyənləşdirilərək realizə edilməsinin səmərəli yolları elmi cəhətdən işlənmişdir. Dissertasiyada ilk dəfə məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzəri-pedaqoji əsasları müəyyən edilmiş, yeni fikir və ideyalar müvafiq təhsilin məzmununa daxil edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Pedaqogikanın didaktika nəzəriyyəsində inkişafetdirici təlimə yeni baxış formalaşdırılmış, məktəbəqədər yaşlı uşaqların təhsili üzrə qarşıya qoyulan müasir tələblərin təmin edilməsində inkişafetdirici təlimin tətbiqinin zəruriliyi əsaslandırılmışdır. İnkişafetdirici təlimin uşaqların fərdi və şəxsiyyətyönümlüxüsusiyyətlərinə təsirinin xarakteri müəyyənləşdirilmiş, müxtəlif situasiyalarda fəaliyyət məzmununun onların psixi inkişafında rolu dəqiqləşdirilmiş, inkişafetdirici təlim situasiyalarında tərbiyəçi-uşaq ünsiyyətinin əsasını təşkil edən mövqe rolları göstərilmiş, məktəbəqədər təhsilin proqramının (kurikulumunun) tətbiqinin həyata keçirilməyə başlandığı müasir mərhələdə Azərbaycan məktəbəqədər təhsil müəssisələrindəinkişafetdirici təlimin prinsip və yolları müəyyənləşdirilmiş,müvafiq ideya və fikirlər təlim prosesində öz əksini tapmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin üsul vəvasitələrinin effektinə pedaqoji təminat verən elmi ümumiləşdirmələr əsasında müəyyən edilmiş nəticə və təkliflərin məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji kadrlar,

ümumən öyrədən və öyrənənlər üçün praktik cəhətdən səmərəli olduğu əsaslandırılmışdır. Tədqiqatın nəticələrindən proqramların, məktəbəqədər təhsil proqramının (kurikulumunun), metodik vəsaitlərin təkmilləşdirilməsində, inkişafetdirici təlimin metodikasına dair tövsiyələrin tərtibində, metodik məqalələrin hazırlanmasında yararlanmaq olacaqdır.

**Müdafiəyə təqdim olunmuş müddəalar:**

1.İnkişafetdirici təlim məktəbəqədər yaşlı uşaqların idraki proseslərinin formalaşmasında əhəmiyyətli rol oynayır.

2.Təlim prosesində tərbiyəçi və uşaq mövqe rollarının qarışılıqlı təsirinin müxtəlifliyi inkişafetdirici təlimin ayrılmaz komponentidir.

3.İnkişafetdirici təlim sisteminin tətbiqi məktəbəqədər yaşlı uşaqların şəxsiyyətyönümlü inkişafını təmin edir.

4.Məzmunun interaktiv xarakterdə hazırlanması uşaqların həyati əhəmiyyəti olan bilik, bacarıq və vərdişlər qazanmalarına, onların şəxsiyyət kimi formalaşması üçün ən zəruri praktik işlərin həyata keçirilməsinə imkan yaradır.

5.Uşaqların fiziki və psixi, sosial, kommunikativ və intellektual cəhətdən məktəbə hazırlığı təlimin keyfiyyətli təşkili üçün mühüm şərtdir.

6. Ailə, uşaq bağçası və məktəbin qarşılıqlı əlaqəsi elmi və pedaqoji cəhətdən düzgün qurulduqda həm bağçada, həm də sonralar məktəbdə iş səmərəli olur, təlim-tərbiyə prosesində varisliyi gözləmək asanlaşır.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Tədqiqat işinin əsas müddəaları müəllifin çap etdirdiyi 37 jurnal məqaləsi, 1monoqrafiya, 8 tezis, 5 metodik vəsait, 1 kitab və 6 proqramda öz əksini tapmışdır. Dissertasiyanın müddəaları ADPU-nun məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının elmi seminarlarında, Beynəlxalq və Respublika səviyyəli elmi-praktik konfranslarda məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 15 yarımfəsli əhatə edən 5 fəsildən, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunmuş əsas müddəalar, tədqiqatın aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"Məktəbəqədər təhsil müəssisələrində inkişafet-**

**dirici təlim üzrə problemin qoyuluşu"** adlanan I fəsli dörd yarımfəsli əhatə edir. ***"İnkişafetdirici təlimin mahiyyəti və məzmunu"*** adlanan birinci yarımfəsildə inkişaf prosesinin, uşağın səthi, ayrı-ayrı, pərakəndə şəkildə qavradığı hadisələrin inikasından, məzmununu dərk etməyə, onları idarə edən qanunların aydınlaşdırılmasına, sistemli və anlaşıqlı biliklərin qazanılmasına keçiddən ibarət olduğu qeyd edilir və göstərilir ki, "İdrak fəaliyyətinin inkişafı həm də onunla ifadə edilir ki, uşaq tədricən xarici aləmi daha artıq təkmilləşmiş üsullarla əks etdirməyi mənimsəyir. O, müşahidə etməyi öyrənir, ən zəruri olanları seçici şəkildə yadda saxlayır, sonra isə ancaq ona lazım olan materialı niyyətli surətdə yenidən canlandırır"[1].

Yarımfəsildə göstərilir ki,İnkişafetdirici təlim konsepsiyasının əsas məğzi həm tərbiyəçi, həm uşaq, həm də inkişafın əsas vəzifəyə çevrilməsi üçün şəraitin yaradılmasıdır. Bu mürəkkəb pedaqoji problem ardıcıl olaraq həll edilir: birinci mərhələdə – uşaqda özünün inkişafa tələbat və qabiliyyətlərin formalaşdırılması, sonrakı illərdə isə bu qabiliyyətlərin gücləndirilməsi və onun maksimal dərəcədə reallaşdırılması üçün şəraitin yaradılması yolu ilə.

İnkişafetdirici təlimin təşkili prosesində tərbiyəçi uşaqlara öyrənməyi öyrətməklə yanaşı, onlarda müstəqil düşünmək, yeni biliklər əldə etməyə təşəbbüs göstərmək, başqasının fikrinə münasibət bildirmək, sərbəst rəy söyləmək, öz fikrini əsaslandırmaq və s. bacarıqlar aşılayır, onların təfəkkürünün tənqidiliyi, müstəqilliyi, çevikliyi və kreativliyinə (yaradıcılığına) zəmin yaradır.

Əsərdə inkişafetdirici təlimin əsasını Y.A.Komenski, İ.H.Pestalossi, J.J.Russo, İ.F.Herbart, K.D.Uşinski və başqalarının əsərlərinin təşkil etməsi, bunun elmi cəhətdən əsaslandırılması, inkişafetdirici təlimin konsepsiyası, yəni uşağın inkişafında əsas məqsədə çatmaq üçün təlimin inkişafdan qabaqda getməsi ideyasının isə XX əsrin 20- 30-cu illərində ilk dəfə L.S.Vıqotski tərəfindən irəli sürülməsi göstərilir və müəyyən edilir ki, inkişafetdirici təlimin əsas məqsədi "informasiyalar mübadiləsi" bilik, bacarıq, vərdişlərin verilməsi və mənimsənilməsi deyil, insanın yaradıcı qüvvəsinin inkişafının özüdür, yaxud özünüinkişafdır.

Yarımfəsildə belə qənaətə gəlinir ki, yaxşı təşkil olunmuş ənənəvi təlim, söz yox ki, şəxsiyyətin inkişafı üçün müvafiq şərait yaradır. Lakin ənənəvi təlim şəxsiyyətin intellektual inkişafını və digər psixi proses və

[1]Mehdizadə Z.M. Uşaq psixologiyası. III hissə. Bakı, APİ, 1988, s.84

keyfiyyətlərinin yüksək inkişaf səviyyəsini təmin edə bilmir.

İkinci yarımfəsil ***"Elmi pedaqoji və metodik ədəbiyyatda problemin qoyuluşu"*** adlanır.Əsərdə qeyd olunur ki,inkişafetdirici təlim problemi Y.A.Komenskidən başlayaraq C.Lokk, İ.Pestalossi, R.Ouen, F.Frebel, K. Büler, J.Piaje,V.Ştern, C.Bruner, K.D.Uşinski B.A. Suxomlinski və bir çox görkəmli pedaqoq və psixoloqların, şəxsiyyətlərin əsərləri, fikirləri bu gün də müasir səslənir. Lakin bugünkü uşaqların inkişafi ilə müqayisədə zəmanəmiz məktəbəqədər yaşlı uşaqların inkişafını daha da sürətləndirir və bununla da təlimin məzmununa yenidən baxılmasını tələb edir.

Əsərdə hələ XX əsrin əvvəllərində pedaqoji fikir nümayəndələrindən Fərhad Ağazadə, Sultan Məcid Qənizadə, Rəşid bəy Əfəndievvə başqalarının məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və inkişafına dair dəyərli fikirlərin söylənməsi xüsusi vurğulanmışdır.

Professor Ə.Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, "İnkişafetdirici təlim prinsipi şagirdlərin əqli inkişafına xüsusi əhəmiyyət verir və onu şəxsiyyətin formalaşması ilə qarşılıqlı əlaqədə araşdırır. Məhz buna görə də təlim elə təşkil edilməlidir ki, o təkcə şagirdlərə bilik, bacarıq verməklə, onların əqli inkişafını təmin etməklə kifayətlənməsin, eyni zamanda onlarda şəxsiyyətin formalaşmasına təkan versin. Bu zaman təlim özünün tərbiyəedici funksiyasını həyata keçirmiş olur"[1]

Ə.Ə.Qədirov məktəbəqədər dövrdə uşaqların təkcə hissi idrakla kifayətlənməyib, təbiət və cəmiyyət haqqında yaşlıların verdiyi şifahi təsvir və izahatdan da istifadə edib, idrak fəaliyyətlərini zənginləşdirdiklərini göstərir və yazır:"6-7 yaşlı uşaqların mühakiməsi daha mürəkkəb və təkmilləşmiş xarakter daşıyır. Uşaq bu mərhələdə nəinki, ümumiləşdirmə aparır, həmçinin onları təshih edir və təkmilləşdirir"[2].

Akademik M.M.Mehdizadə təhsildə idraki inkişafın parametrlərini nəzərə almağı, ona imkan və şərait yaratmağı əsas amil hesab edir, uşaqlarda idrakın inkişaf səviyyəsi öyrənmə marağına, biliyə yiyələnmək, biliyi dərk etmək qabiliyyəti və s. sahələrdə özünü göstərdiyini və bunun da uşağın həyat tərzi və onu əhatə edən mühitdən çox asılı olduğunu qeyd edir[3].

F.A.Rüstəmov, T.Y.Dadaşova qeyd edirlər ki, inkişafetdirici təlimin müvəffəqiyyətini təmin etmək məqsədilə şəxsiyyətin inkişafının xüsu-

---

[1]Ə.Əlizadə.Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı,Ozan,1998,s.135
[2]QədirovƏ.Ə.Yaş psixologiyası.B., Maarif,2008,s.104-105
[3]Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, Maarıf, 1982, 382 səh.

siyyətlərini və onun qanunauyğunluqlarını nəzərə almaq vacib faktordur[1].

Problemlə bağlı məktəbəqədər təhsil müəssisələrinin proqramları da təhlil edilmiş və göstərilmişdir ki,1998-ci ildə yeni məzmunda hazırlanan "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nın[2] tərbiyəçi-uşaq münasibətlərinin birtərəfli olması, ənənəvi təlimin yaddaşa əsaslanması, müasir tələblərə uyğun olaraq həyati bacarıqlara əsaslanan təlimə keçilməsi zərurəti "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nın hazırlanması məsələsini ön plana çəkdi.Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli, 1329 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu)[3]məktəbəqədər təhsilin məzmununun yenidən qurulması, yeniləşməsi, onun hər şeydən əvvəl keyfiyyətinin yüksəlməsi ilə əlaqədardır.

Yarımfəsildə göstərilir ki, adları çəkilən tədqiqatlarda, dərsliklərdə, proqramlarda faydalı fikirlər çoxdur, lakin onlardakı elmi biliklərin yeniləşdirilməsinə, didaktik cəhətdən işlənməsinə və müasirləşdirilməsinə ehtiyac vardır.

***"Problem üzrə məktəbəqədər təhsil müəssisələrində vəziyyət"*** adlanan üçüncü yarımfəsildə inkişafetdirici təlim üzrə işin vəziyyətinin öyrənilib, təhlil olunması nəticəsində məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin bu istiqamətdə fəaliyyət prosesindəki nailiyyətləri və çatışmazlıqları aydın təsəvvür edilir.

Bu məqsədlə tədqiqat planına uyğun olaraq Bakı şəhərindəki 11, 22,112, 119, 240 saylı, Sumqayıt şəhərindəki 34, 11, 56, 57, 62, 64, 65, 71 saylı, Binəqədi rayonunun 266 saylı və Mingəçevir şəhərində fəaliyyət göstərən 1,10 saylı məktəbəqədər təhsil müəssisələrində müşahidələr aparılmış, müsahibələr təşkil edilmiş, anket sorğuları keçirilmiş, müvafiq sənədlər araşdırılmış, tərbiyəçilər ilə söhbətlər aparılmışdır. Bu səpgidə həyata keçirilən işlərin əsas məqsədi problemlə bağlı mövcud vəziyyəti öyrənmək, təhlil edərək müəyyən ümumiləşdirmələr aparmaqdan ibarət olmuşdur. Bunun üçün aşağıdakı istiqamətlər üzrə iş aparılmışdır.

1. Uşaqların hərtərəfli inkişaf etdirilməsinə təsir göstərən amillər.
2. Tərbiyəçilərin iş planlarında problemin qoyuluşu.

---

[1]RüstəmovF.A.,Dadaşova T.Y. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik. Bakı,Nurlan, 2007, s.303

[2]Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998, 207s.

[3]Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı,ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi,2014, 96s.

3.Təlim və təlimdənkənar vaxtlarda problemin həlli məsələləri.

Uşaqların hərtərəfli inkişafında inkişafetdirici təlimin təşkili ilə bağlı aşağıdakı suallar üzrə keçirilən anket sorğusunda məktəbəhazırlıq qrupundan 250 uşaq iştirak edir.

**Uşaqların hərtərəfli inkişafında inkişafetdirici təlimin təşkili ilə bağlı keçirilən anket sorğusu**

**Cədvəl 3. 1**

| № | Suallar | Düzgün vətam cavab | | Əsasən, düzgün cavab | | Səhv cavab və cavab vermədi | |
|---|---|---|---|---|---|---|---|
| | | İştirak edən-lərin sayı | faizlə | İştirak edən-lərin-sayı | faizlə | İştirak edən-lərin sayı | faizlə |
| 1. | Hansı məşğələ-ləri keçirsiniz? | 135 | 54% | 43 | 17,2% | 72 | 28,8% |
| 2. | Hansı oyunları oynayırsınız? | 130 | 52% | 39 | 15,6% | 81 | 32,4% |
| 3. | Hansı məşğələ xoşunuza gəlir və nə üçün? | 142 | 56,8% | 57 | 22,8% | 51 | 20,4% |
| 4. | Sən özün düşün-düyün kimi nağıl danışa bi-lərsənmi? | 147 | 58,8% | 53 | 21,2% | 50 | 20% |
| 5. | Məşğələ vaxtı musiqi dinləyir-sinizmi? | 136 | 54,4% | 73 | 29,2% | 41 | 16,4% |

Sorğunun nəticəsi göstərdi ki, birinci suala135nəfər(54%)“Rəsm”,“Savad təlimi”,“Nitq inkişafı”,“Musiqi”,“Riyaziyyat”məşğələlərini keçirik söylədilər, 43 uşaq(17,2%) sualıəsasən düzgün cavablandırdı.72 uşaq (28,8%) isə suala düzgün cavab vermədi. İkincisuala cavab verərkən sorğuda iştirakedən uşaqlardan 130 nəfər (52%) dava-dava, qaçdı-tutdu, evcik-evcik, həkim oyununun,39 nəfər (15,6%) gəzinti zamanı oynadıqları oyunların adını sadaladılar.81 uşaq (32,4%) səhv cavab verdi.Üçüncü suala 142 nəfər(56,8%)düzgün, tam və ətraflı,57 nəfəri (22,8%) əsasən düzgün,51 uşaq (20,4%) isəyarımçıq cavab verdi.Dördüncü suala sorğuda iştirak edənlərdən 147 nəfər (58,8%) “Bəli mən nağıl danışa bilirəm”

cavabını verdi. 53 nəfər (21,2%) "Anam kimi, nənəm kimi, tərbiyəçi kimi nağıl danışıram","Nağıl danışmaqdan xoşum gəlir"kimi fikirlər qeyd olundu,50 nəfər (20%) isə sualı düzgün cavablandırmaqda çətinlik çəkdi.Beşinci suala 136 nəfər (54,4%) "Bəli musiqi məşğələsində mahnıya qulaq asırıq", 73 nəfər (29,2%) "Bayramlarda mahnı oxuyuruq, rəqs edirik" cavabını verdi. 41 uşaq (16,4%) ısə sualı yarımçıq cavablandırdı.

Bakı, Sumqayıt və Mingəçevir şəhərində yerləşənməktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər arasında anket sorğusu keçirildi. Sorğuda 214 nəfər tərbiyəçi iştirak etdi.

**Tərbiyəçilər ininkişafetdirici təlimin təşkilində rolu mövzusunda keçirilən anket sorğusu**

**Cədvəl 3.2**

| № | Suallar | Düzgün vətam cavab | | Əsasən,düzgün cavab | | Səhv cavab və cavab vermədi | |
|---|---|---|---|---|---|---|---|
| | | İştirak edənlərin sayı | faizlə | İştirak edənlərin sayı | faizlə | İştirak edənlərin sayı | faizlə |
| 1. | İnkişafetdirici təlim mühiti anlayışınınecə başa düşürsünüz? | 82 | 38,3% | 58 | 27,1% | 74 | 34,6% |
| 2. | Hazırda istifadə etdiyiniz proqramın məzmunu müasir tələblərə cavab verirmi? | 102 | 47,7% | 63 | 29,4% | 49 | 22,9% |
| 3. | Uşaqlarda tənqidi və məntiqi təfəkkürü inkişaf etdirmək üçün hansı üsullardan istifadə edirsiniz? | 111 | 52 % | 51 | 23,8% | 52 | 24,2% |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | Uşaqlarda yaradıcı təfəkkürü inkişaf etdirmək üçün hansı üsullardan istifadə edirsiniz? | 98 | 45,8% | 62 | 29 % | 54 | 25,2% |
| 5. | Uşaqların bağçaya adaptasiya olunması üçün hansı yollardan istifadə edirsiniz? | 107 | 50% | 54 | 25,2% | 53 | 24,8% |

Cədvəldən göründüyü kimi birinci suala 82 nəfər (38,3%)"Uşaqların psixi və fiziki sağlamlıqlarının qorunması və möhkəmləndirilməsi, onların hərtərəfli inkişafının təmin edilməsi üçün inkişafetdirici mühitin yaradılması vacibdir"cavabını verdilər,58 nəfər (27,1%) "İnkişafetdirici təlim mühiti uşaqların yaradıcı inkişafını təmin etməyə qadir olan təşkil olunmuş həyati mühitdir", 74 nəfər (34,6%)isə sualı səhv cavablandırdı.İkinci suala 102nəfər (47,7%) "Müasir tələblərə cavab vermir," "Tərbiyəçi-uşaq münasibətləri birtərəflidir", 63 nəfər (29,4%) "Proqram mürəkkəbdir","Təlimin təşkilinə verilən tələblər dəyişilməlidir"fikrini bildirdilər, 49 nəfər (22,9%) isə sualı düzgün cavablandırmadı.Üçüncü suala 111 nəfər (52%) "Suallarla müraciət edirəm","Öyrətdiyim hər hansı mövzuya münasibət bildirmələrinə çalışıram", 51 nəfər (23,8%) "Müşahidə və müsahibə üsulundan istifadə edirəm","Suallarını cavablandırmağa çalışıram","Oyunlardan istifadə edirəm", "İzahata geniş yer verirəm", 52 nəfər (24,2%)isə suala düz cavab verə bilmədi.Dördüncü suala 98 nəfər (45,8%)"Uşaqlarda yaradıcı təfəkkürü məşğələ və oyun zamanı inkişaf etdirməyə çalışıram","Fəal təlim üsullarından istifadə edirəm",62 nəfər (29%)"Məşğələlərdə əyani vəsaitlərdən istifadə edirəm", "Oyun zamanı uşaqlara sərbəstlik verirəm" kimi fikirlər irəli sürüldü.54 nəfər (25,2%) isə sualı düzgün cavablandırmadı.Beşinci suala 107 nəfər (50%)"Valideynlərlə maarifləndirmə işləri aparıram", "Uşaqlarla maraqlı oyunlar keçirirəm", "Qrup otağında ev mühitinə uyğun şərait yaradıram", 54 nəfər (25,2%)"Valideynləri tez-tez bağçaya dəvət edirəm", "Uşaqların bütün arzularını yerinə yetirirəm","Musiqidən istifadə edirəm" cavabını verdi,53 nəfər(24,8%) isə sualı düzgün cavablandırmadı.

Məktəbəqədər təhsil müəssisələrindəproblemlə əlaqədar valideyn-

lərlə yazılı sorğu aparıldı. Sorğuda 175 valideyn iştirak etdi.

**Uşaqların hərtərəfli inkişaf etdirilməsində valideynlərin rolu mövzusunda keçirilən sorğu**

**Cədvəl 3.3**

| № | Suallar | Düzgün və tam cavab | | Əsasən, düzgün cavab | | Səhv cavab və cavab vermədi | |
|---|---|---|---|---|---|---|---|
| | | İştirak edənlərin sayı | faizlə | İştirak edənlərin sayı | faizlə | İştirak edənlərin sayı | faizlə |
| 1. | Uşaqları inkişaf etdirmək üçün hansı üsullardan istifadə edirsiniz? | 61 | 34,9% | 54 | 30,9% | 60 | 34,2 % |
| 2. | Uşaqların idraki, fizikivə emosional ehtiyaclarına necə reaksiya verirsiniz? | 60 | 34,2% | 50 | 28,6% | 65 | 37,2 % |
| 3. | Uşaqların maraqlarına, tələbatına, fikirlərinə necə yanaşırsınız? | 65 | 37,1% | 52 | 29,8% | 58 | 33,1 % |
| 4. | Uşaqların müstəqilliyinə,sərbəstseçim etməsinə, təşəbbüs göstərməsinə şərait yaradırsınızmı? | 73 | 41,8% | 63 | 36 % | 39 | 22,2 % |
| 5. | Uşağın inkişafı üçün evdə necə mühit yaratmısınız? | 54 | 31% | 64 | 36,5% | 57 | 32,5 % |

Cədvəldən göründüyü kimi birinci suala 61 nəfər(34,9%) "Uşaqlara kitab alır", "Kukla teatrına aparır", "Hərfləri öyrədir, rəsm çəkdirir", "Şeir, mahnı öyrədir" kimi fikirləri qeyd edilir, 54 nəfər (30,9% )"Uşaqlara tez-tez kollektivdə olmasına şərait yaradır", "Uşaqların arzularını yerinə yetirir", "Uşaqların oyunlarında iştirak edir", "Uşaqları tez-tez gəzintiyə çıxarır", "Uşaqlara tarixi abidələr haqqında məlumat verir" cavabı verildi, 60nəfər(34,2%) isə sualı cavablandıra bilmədi.İkinci suala60 nəfər(34,2%) "Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün daim çalışıram", "Düşündürücü tapşırıqlar verirəm", 50 nəfər(28,6%) "Fikir söyləmələri üçün şərait yaradıram", "Mükəmməl insan olması üçün çalışıram","Uşaqların suallarını cavablandırmağa çalışıram", "Arzularını yerinə yetirirəm", 65 nəfər (37,2%) cavab vermədi.Üçüncü suala 65 nəfər (37,1%) "Mümkün qədər ehtiyac və tələbatlarını ödəyirəm", "Uşaqların arzu və istəklərini, maraqlarını nəzərə alıram",52nəfər (29,8%) "Uşaqların fikirlərinə hörmətlə yanaşıram və yeri gəldikcə düzgün istiqamət verməyə çalışıram",58nəfər (33,1%) isə sualı cavablandırmaqda çətinlik çəkdi.Dördüncü "suala 73 nəfər (41,8%) "Uşaqların sərbəst seçim etməsi üçün şərait yaradıram", "Sərbəst müqayisə və təhlil etməsinə imkan verirəm", 63 nəfər (36%) "Müstəqil qərar verməsi üçün kömək göstərirəm", "Təşəbbüskarlığını dəyərləndirirəm",39 nəfərin (22,2%) isə fikirləri səhv oldu."Uşağın inkişafı üçün evdə necə mühit yaratmısınız?"sualına 54 nəfər (31%) "Hər cür avadanlıqla təchiz olunmuş uşaq otağı ayırmışam," "Kompüter, mobil telefon, planşet almışam," 64 nəfər (36,5%) "Mənzil şəraitim otaq ayırmağa imkan verməsə də balaca bir guşədə uşağın sevimli oyuncaq və əşyalarını yığmışam," "Düşündürücü oyuncaqlar almışam," 57 nəfər (32,5%) isə sualı səhv cavablandırdı.

Yarımfəsildə məktəbə hazırlığın əsas məqsədinin uşaqların tələb və imkanlarını nəzərə almaqla onların inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etmək olduğu göstərilir və qeyd olunur ki,"Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda beş yaşlı uşaqlar üçün məktəbəhazırlığın zəruriliyi məsələsi irəli sürülsə də, 2013-cü il 24 oktyabr tarixlində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda[1] "Məktə-

[1]Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi", 2013, 25 oktyabr.

bəhazırlıq təhsilinin (1 il) icbariliyinin təmin olunması məsələsi öz əksini tapmışdır.

Tədqiqatla bağlı xarici təcrübənin(Finlandiya,Cənubi Koreya, Yaponiya, Rusiya, Qazaxstan, Ukrayna, Gürcüstan) öyrənilməsi də bu yarımfəsildəöz əksini tapır.

Dördüncü yarımfəsil ***"Uşaqların inkişafında pedaqoji prosesin düzgün təşkilinin əhəmiyyəti"*** adlanan yarımfəsildə qeyd olunur ki, uşaq bağçalarında inkişafetdirici təlimin təmin olunmasında pedaqoji prosesin yüksək səviyyədə təşkili onun elmi-pedaqoji cəhətdən əsaslandırılmış planlı, məqsədyönlü idarəetmədən, rəhbərlik və nəzarətdən çox asılıdır. İdarə edənin və idarə olunanın pedaqoji prosesdə fəal və məqsədyönlü iştirakı bu prosesin səmərəli alınmasına gətirib çıxarır.

Yarımfəslin sonunda belə qənaətə gəlinir ki, pedaqoji prosesdə inkişafetdirici təlimin təmin olunması üçün onun düzgün idarə olunması, uşağın müəssisəyə adaptasiyası, inkişafetdirici təlim mühitinin təşkili, idrakı, təfəkkürü, müstəqil düşüncə tərzini inkişaf etdirən müasir texnologiyaların tətbiqi, "müdir-tərbiyəçi", "tərbiyəçi-uşaq", "uşaq-uşaq","tərbiyəçi-uşaq-valideyn"münasibətlərinin düzgün qurulması böyük rol oynayır.

**"Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin nəzəri əsasları"** adlanan ikinci fəslin ***"Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin psixoloji və pedaqoji əsasları"*** adlı birinci fəslində göstərilir ki, təlimin pedaqoji-psixoloji əsaslarına istinadən elə təlim üsullarından istifadə edilməsi vacibdir ki, bu üsullar öz təbiiliyi ilə uşaqların təlimə marağını artırsın, onlarda bilik almağa daxili ehtiyac yaratsın, öz perspektivliyi ilə uşaqları gələcək inkişafa doğru yönəltsin və psixi inkişafını təmin etsin. Təlimin psixoloji tələbləri aşağıdakılardır.

1.Uşaqların təlimə müsbət motivasiyası.
2.Materialla bilavasitə hissi tanışlıq prosesi.
3.Öyrənmə zamanı təfəkkür prosesininin inkişafı.
4.Əvvəlki və sonradan əldə olunmuş informasiyanın yada salınması, yeni məlumatların əlavə edilməsi, dəyişdirilməsi, əvəz olunması prosesi.

Tərbiyəçinin fəaliyyətinin əsas məzmunu uşağın inkişafına yönəlməsi ilə müəyyənləşir:

a)uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla kifayətlənməyərək, bu xüsusiyyətlərin fəal formalaşmasına və onların gələcək inkişafında bünövrə rolunun oynamasına çalışmaq;

b)təlim-tərbiyə prosesində hər bir yaş mərhələsinin daxilində uşaqların fərdi xüsusiyyətlərini: meyl və maraqlarını, bacarıq və vərdişlərini,

hiss və duyğularını inkişaf etdirmək;

c) uşaq bağçasında uşaqların inkişafı üçün əlverişli psixoloji iqlim yaratmaq.

***"Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin didaktik əsasları"***adlı yarımfəsildə inkişafetdirici təlimin didaktik əsaslarına didaktikanın prinsip və tələblərinə müvafiq yeni təlim metod və texnologiyalarından istifadə, təlimin təşkili formalarının seçilməsi, məşğələ prosesində bütün uşaqların zehni və əməli fəallıq göstərməsinə bərabər imkanların yaradılması, müxtəlif əyani və texniki vasitələrdən istifadənin daxil olması göstərilir. Didaktik tələblər məşğələnin müxtəlif məsələlərini, müxtəlif sahələrini əhatə edir və təlim prosesinin yüksək metodik səviyyədə qurulması üçün buraya yeni metod və texnologiyaların seçilməsinin də məqsədəmüvafiq olduğu, didaktik tələblərin hesaba alınmasını asanlaşdıran başlıca cəhətlərdən birinin də məşğələlərin təşkilində təlimin tipinin müəyyən edilməsi qeyd edilir.

***"Uşağın məktəbəqədər təhsil müəssisələrinə adaptasiya edilməsində inkişafetdirici təlimin rolu"***adlanan üçüncü fəsildə pedaqoji işin planlaşdırılması, xüsusi forma və metodların tətbiqi müəyyənləşdirilir və bunların inkişafetdirici xarakter daşımasına önəm verilir və belə qənaətə gəlinir ki, inkişafetdirici təlimin komponentlərinin həyata keçirilməsi adaptasiya dövrünün nisbətən yüngül keçməsinə şərait yaradır.Yarımfəsildə adaptasiya dövründə heç bir uşağın özünü diqqətdən kənarda hiss etməməsi üçün həm fərdi, həm də frontal oyunların keçirilməsinin məqsədəuyğun olduğuqeyd olunur.Yarımfəsildə planlaşdırmaaşağıdakı istiqamətlər üzrə aparılır.

1.Oyun prosesində qarşılıqlı əlaqələr.
2.Oynayırıq və qururuq.
3.Emosional qayğı formalaşdırmaq.
4. Uşağın inkişafı.

I Həftə

| Həftənin günləri. Ayıntarixi | Oyun prosesində qarşılıqlı əlaqələri | Balacalarla oynayırıq və qururuq | Emosional qayğıkeşlik formalaşdırırıq | Hərəkəti inkişaf etdiririk |
|---|---|---|---|---|
| Bazar ertəsi | Süjetli oyun: "Gəlinciyifəsillərə uyğun geyindirək""Di- | Quruculuq oyunu: "Gəlincik üçün kubiklərdən | Yeni oyuncağa baxış: "Salam, gəlincik Lalə" Gəlincik şei- | Oyun-tapşırıq "Ata tərəf get" |

| | | | | |
|---|---|---|---|---|
| | daktik oyuncaqla oyun” | ev” | rini oxumaq | Hərəkətli oyun: “At” |
| Çərşənbə axşamı | Süjetli oyun: “Kökə bişirək kuklaya yedizdi-rək”Qumlaoyun: “Qoğalbişiririk” | Quruculuqo yunu:“Quş-cuğaz üçün kubiklərdən oyun” | İllüstrasiyalara baxış və şeiroxunması | Oyun-tap-şırıq “Quşu tut” |
| Çərşənbə | Süjetli oyun: “Bəzənib qonaq gedirik” Əyləncəli oyun: “Balıq tutmaq” | Quruculuq oyunu: “Qa-tar düzəldək, qonaq gedək”(yum şaq-modullar) | Körpələr üçün şəkil çəkmək “Körpə üçün güllər”“Bizim kolluqda gül-lərə baxış” mü-şahidə | Oyun tap-şırıq: “Gə-linciyə qonaq get”Hərə-kətli oyun: “Şən yaylıqlar” |
| Cümə axşamı | Süjetli oyun: “Gəlinciyə ev ti-kək”Barmaqlarla oyun: Barmaqlar qalxır”Gəlinciklə | Quruculuq oyunu: “Ku-bik və prizmadan ev” | Laylay oxun-ması “Gəlinci-yimi yatırı-ram” | Oyun tap-şırıq: “Cı-ğırla get”Hərə-kətli oyun:“To p və şarları topla” |
| Cümə | Əyləncəli oyun: “Üz, gəmi” | Quruculuq oyunu:“İki kubik və prizmadan ev” | Şeir oxunması Musiqi sə-daları altında rəqs etmək | Oyun tap-şırıq: “Gəmini tap”Hərə-kətli oyun: Karusel” |

II Həftə

| Həftənin günləri, Ayın tarixi | Oyun prose-sində qarşılıqlı əlaqələr | Balacalarla oynayırıq və qururuq | Emosional qayğıkeşlik formalaş-dırırıq | Hərəkəti in-kişaf etdiririk |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Bazar ertəsi | Süjetli oyun:"Ayı balası uşaq bağçasında qonaq"Didaktik oyun: "Armudları səbətə yığ" | Quruculuq oyunu: "Kiçik qalacıq qururuq" | Yeni oyuncağa baxış: "Salam,ayı balası"şeir söyləmək | Oyun-tapşırıq: "Yastıdaban ayı" Hərəkətli oyun: "Ayı balasını tut" |
| Çərşənbə axşamı | Süjetli oyun: "Ayı balasını yedizdir" "Piramida ilə oyun" | Quruculuq oyunu: "Böyük qala qururuq" | Şeir söyləmək | Oyun-tapşırıq: "Ayı balasına kökə apar" |
| Çərşənbə | Süjetli oyun: "Ayı balasını maşında gəzdir" Su ilə oyun: "Maşını yuyuruq" | Quruculuq oyunu: "Maşın üçün yol çəkirik" | Balacalar üçün şəkil "Rəngbərəng toplar" | Oyun tapşırıq: "İndi tutaram" (hərəkətli oyuncaqla) |
| Cümə axşamı | Süjetli oyun: "Gəlinciyi yatırırıq" | Quruculuq oyunu: "Balaca ayı balası üçün çarpayı düzəldək" | "Laylalar" dinləmək | Oyun tapşırıq: "Salam, dostsağ ol" |
| Cümə | Əyləncəli oyun: "Biz heyvanları tumarlayırıq" | Quruculuq oyunu:"Ayı balası yol ilə dovşana qonaq gedir" | Əşya şəkillərinə baxış "Yumşaq ayının dostları" | Oyun tapşırıq: "Ayı balasını tap", "Uçan şarıtut" |

***Şək. 1. Adaptasiya dövrünün iki həftəsi üçün nümunəvi plan***

***"Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin məzmunu"***adlanan dördüncü fəsildə məktəbəqədər təhsilin məzmunu yeniləşdirilərkən aşağıdakıların nəzərə alınmasının zəruriliyi qeyd olunur:

1.Uşaq orqanizminin, psixikasının, maraqlarının və müasir tələblərin nəzərə alınması.

2.İnkişafetdirici təlimin məzmunu şəxsiyyətin inkişaf qanunauyğunluqlarına bilavasitə yönələn təlimdir. Bu prosesdə inkişafetdirici effekt birbaşa nəticəni göstərir. Bu cür təlim yalnız idraki funksiyaların (təfəkkürün, qavramanın, yaddaşın və s.) inkişafı ilə deyil, həmçinin insan fəaliyyə-

tinin müxtəlif növ və formalarında uşağın subyekt kimi formalaşması ilə diqqəti çəkir.

3.Məktəbəqədər təhsilin məzmununun inteqrativliyi ilə seçilməsi zəruridir. Oradakı məşğələlərin adlandırılmasında, məzmunun müəyyənləşdirilməsində şəxsiyyətin formalaşması üçün əhəmiyyət kəsb edən və bilavasitə insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür.

4.Tərbiyəçinin başlıca vəzifəsi idraki fəaliyyəti aktivləşdirməkdir. Bunun müvəffəqiyyətli həlli üçün idraki maraqların inkişafı üçün metodlar, uşaqların fəaliyyət motivlərini formalaşdıran müəyyən şəraitin yaradılması vacibdir ki, fəaliyyət prosesinə maraq yaransın.

5.Məktəbəqədər təhsilin məzmununun humanist prinsipi əsasında qurulması şəxsiyyətin, cəmiyyətin mədənilik səviyyəsini müəyyənləşdirir və şəxsiyyətyönümlülük, uşaqyönümlülük anlayışlarının hər ikisinə xidmət edir.

6. İnkişafetdirici mühitin yaradılması uşaqların və böyüklərin qarşılıqlı aktiv təsiri fonu yaradır ki, bu da şəxsiyyətyönümlü təlimin modelini həyata keçirir.

***"Uşaqların inkişafına xidmət edən təlim yükünün müəyyənləşdirilməsi"***adlı yarımfəsildəgöstərilir ki, uşaqların təlim yükünün müəyyən olunmasında yaranan çətinliklərin əksəriyyəti qruplarda komplektləşdirmələrin düzgün aparılmamasından irəli gəlir.

Aparılmış tədqiqatdan belə qənaətə gəlinir ki, məşğələnin kəmiyyət və keyfiyyət üzrə qiymətləndirilməsini xüsusi meyarlara müvafiq valeoloji təhlil ilə aşağıdakı kimi qruplaşdırmaq olar.

1.Yeni materialın həcmi: anlayışların, qaydaların, qanunların sayı, təlim prosesində onların işlədilməsi;

2. Təkrar etmək üçün verilən materialın həcmi: məşğələnin hansı mərhələsində, uşaqların cavablarının sayı, onların öz bilik və bacarıqlarını tətbiq etmə yolları;

3.Tədris fəaliyyəti: dinləmə, qavrama, danışma, təhlil, müşahidə, problem həlli, tapşırığı yerinə yetirmək, yerindən cavab vermək, təqdimat;

4.Yerinə yetirilən işin xarakteri: dəyişiklik edilmədən tapşırığın yerinə yetirilməsi, dəyişiklik etməklə tapşırığın yerinə yetirilməsi, izah, məntiqi əməliyyatlar, ümumiləşmələr, nümunəvi qaydalar üzrə tapşırığın yerinə yetirilməsi, yaradıcılıq elemenləri;

5. Emosionallaq və marağın səviyyəsi: uşaqlar tərəfindən verilən sualların sayı; uşaqların müzakirədə iştirakı;

6. Həyəcan və yorulmanın yaranması: narahatçılıq, qorxu, aqressiv-

lik əlamətləri; konkret ünsiyyətin saxlanma formaları; nəzarət və qiymətləndirmənin üsulları, uşaqlarıntərbiyəçinin münasibətinə reaksiyası, yuxululuq, məşğələdən yayınma əlamətləri, səhvlərin sayının artması və hansı mərhələlərdə onlar qeyd olunur;

7.Təlim prosesinin və uşaqların vəziyyətinin optimallaşdırılması üçün tətbiq olunan üsullar: şəxsi ünsiyyət, tempin dəyişməsi, idman fasiləsi, gözlər üçün gimnastika, yumor elementləri vəs;

8.Tərbiyəçinin vəziyyətinin dinamikası: müsbət emosiyalar və ya həyəcan hissi yaradan epizodlar, narazılıq, gərginlik, bunların təlim prosesinə və tərbiyəçi ilə uşaqların qarşılıqlı münasibətinə təsiri.

| Humanist mövqedən | Avtoritar mövqedən |
|---|---|
| Vəzifələr | |
| 1.Uşaqların psixoloji müdafiəsinin təmin edilməsi.<br>2.Şəxsiyyətin ilkin xüsusiyyətlərinin formalaşdırılması.<br>3.Fərdiliyin inkişafı.<br>4.İnkişaf vasitələri kimi bilik, bacarıq və vərdişlərin istifadə edilməsi. Şüarımız belədir: «Birlikdə işləyirik!» | 1.Uşaqların bilik, bacarıq və vərdişlərə yiyələnməsi.<br>2.Uşaqlara itaətli olmağı öyrət- mək. Şüarımız belədir: «Mənim kimi et!» |
| Ünsiyyət üsulları | |
| 1. Uşağın başadüşülməsi, qəbul edilməsi.<br>2. Uşağın mövqeyində durmaq, onun fikrini nəzərə almaq. | 1.Passivlik, əyləncələr, qadağalar, tələbkarlıq.<br>2. Təhdidlər, cəzalar, qışqırıq. |
| Ünsiyyət taktikası | |
| 1. Əməkdaşlıq. | 1.Avtoritar rejim və nəzarət. |
| Tərbiyəçinin mövqeyi | |
| 1.Uşağın maraqları və inkişaf perspektivinə uyğun iş aparmaq.<br>2. Öz metodik sistemini yaratmaq.<br>3. Şəxsiyyətin mükəmməl inkişafı üçün şəraitin yaradılması.<br>4.Yaradıcılıq və fərdi qabiliyyətlərinnümayiş etdirilməsi | 1.Dəyişiklik və istisna olmadan proqram marerialının reallaşdırılması.<br>2.MTM -nin və nəzarətçi təşkilatların tələblərinin təmin olunması.<br>3.Uşaq tərbiyəçinin tərbiyəobyektidir. |

| | |
|---|---|
| üçün şəraitin yaradılması.<br>5.Oyun uşaqların həyatının təşkilində əsas forma olaraq onların fəallığıvə müstəqilliyinin reallaşdırılması vasitəsi kimi çıxış edir.<br>6. Uşaqların yaşıdları və böyüklərlə əməkdaşlığı. | 4.Pedaqoji prosesin mərkəzində uşaqlarla frontal iş formaları durur.<br>5.Nizam- intizam xatirinəuşaqların fəallıq göstərməsi.<br>6. Oyunun müddətinə qadağa, reqlamentinqoyulması. |
| Nəticə | |
| 1.Əməkdaşlıq eqoizmə qarşı vasitə kimi.<br>2.Uşaqlar daha sərbəstdirlər və uğursuz-<br>luqdan qorxmurlar.<br>3.Uşaqlar milli və ümumbəşəri dəyərlərə<br>yiyələnirlər. | 1. Uşaq və böyüklərin qarışılıqlı yadlaşması.<br>2. Fəallığın aşağı olması.<br>3. Uşaqların ikili davranışının yaranması. |

**Şək. 2. Tərbiyəçinin uşaqlarla ünsiyyəti**

| Pozitiv dəyişiliklər | Ən yaxşı ənənələrin qorunması | Neqativ stereotiplərin qorunması problemləri |
|---|---|---|
| Müxtəlif proqramların (kurikulumun) hazırlanması | Məktəbəqədər təhsilin məzmununda komplekslilik prinsipinin gözlənilməsi. | Ənənəvi proqramınüstünlüyü. |
| Yeni istiqamətlərin inkişafı (xoreoqrafiyanın, xarici dilin, ritmikanın, təsviri fəaliyyətin müxtəlif texnologiyalarının, milli və ümumbəşəri mədəniyyətin öyrədilməsi). | Məktəbəqədər yaş dövrünə, həmçinin uşaqların spesifik yaş dövrünəmüvafiq metod və priyomlarıntətbiqi.(Oyun, quraşdırma,səhnələşdirilmiş fəaliyyət və s.) | Məktəbəqədər təhsilin məzmununda idraki diktat, sosial-emosional istiqamətin inkişafının olmaması. |
| İnkişaf pedaqogikasına əsaslanan yeni texnologiyalar, məşğələlərarası balansın gözlənilməsi, reqla- | Uşaqlarla frontal, kiçik qrupvə fərdi iş formalarının birgə istifadə edilməsi. | Müəyyən həcmdə bilik, bacarıq və vərdişlərin uşaqlar tərəfindən mənimsənilməsinəyönələntexnologiyalar. |

| | | |
|---|---|---|
| mentsiz fəaliyyət növləri və uşaqların sərbəstliyi. Komplekslilik və müxtəlif fəaliyyət növlərinin inteqrasiyası hesabına məşğələlərin sayının azalması. | | |
| | Pedaqoji prosesin tibbi təminatı (dispanserizasiya, xəstəliklərin profilaktikası). | MTM -nin tibbi xidmətinin ixtisarı, xüsusən də kənd yerlərində. |

**Şək. 3. Məktəbəqədər təhsilin məzmununun xüsusiyyətləri.**

Yarımfəsildə təlim prosesində gərginlik yaradan səbəblərdən birinin qrupda uşaqların sayının çox olması qeyd olunur və göstərilir ki, belə hallarda uşaqların səhhətində və vəziyyətində bir sıra problemlər müşahidə olunur.Bunu sxemdə görmək olar.




**Sxem 1. Təlim prosesində gərginlik yaradan səbəblər**

*"Uşaqların inkişafına təsir edən oyun və tapşırıqların xarakteri"*adlı yarımfəsildə göstərilir ki, uşaqların yüklənmələrinin başlıca səbəblərindən biri də mürəkkəb tapşırıqların verilməsi üzrə işin nöqsanlı olmasıdır.

İnkişafetdirici metodikanın (oyun və tapşırıqlar) məğzi aşağıdakılardan ibarətdir:

1.Uşağa heç bir təlim proqramı tətbiq edilmir. O, oyun dünyasına qərq olur və burada öz fəaliyyət sferasını seçməkdə sərbəstdir.

2.Uşağa oyunun qaydaları izah edilmir. O, nağılların köməyi ilə, böyükləri təqlid etməklə, kollektiv oyunlarda iştirak etməklə yeni oyun və tapşırqlara cəlb edilir.

3.Yeni oyunun mənimsənilməsi böyüklərin fəal iştirakını tələb edir; gələcəkdə uşaq özü müstəqil fəaliyyət göstərir.

4.Uşaqlar qarşısında tədricən mürəkkəbləşən bir sıra vəzifələr qoyulur.

5.Uşağa hər məlumat hazır verilmir. Ona müstəqil düşünüb bir nəticəyə gəlməyə imkan yaradılır.

6.Əgər uşaq tapşırığı yerinə yetirməkdə çətinlik çəkirsə, onu bir qədər sadələşdirmək lazım gəlir və yaxud müvəqqəti olaraq imtina edilir.

Yarımfəsildə belə qənaətə gəlinir ki, inkişafetdirici oyunlarda yaradıcı qabiliyyətlərin inkişafı ilə bağlı bir neçə problemi eyni zamanda həll etmək olar:

1.İnkişafetdirici oyunlar və tapşırıqlar lap erkən yaşlardan yaradıcı qabiliyyətlərin inkişafı üçün "qida" verir.

2.Pilləli tapşırıqlar daim qabiliyyətlərin qabaqlayıcı inkişafı üçün şərait yaradır.

3.Hər dəfə özünün ən yüksək inkişaf səviyyəsinə qalxmaqla uşaq daha müvəffəqiyyətlə inkişaf edir.

4.İnkişafetdirici oyunlar məzmununa görə çox müxtəlif ola bilər. Başqa oyunlar kimi onlar da gərginlik yaratmır, azad və şən yaradıcılıq atmosferi yaradır.

5.Uşaqlarla bu oyunları oynayarkən həm tərbiyəçilər, həm də valideynlər çox mühüm bacarıq əldə edirlər – uşağın düşünməsinə və qərar qəbul etməsinə mane olmamaq, bacaracağı işi onun əvəzinə görməmək.

Bütövlükdə bu keyfiyyətlər təfəkkürün yaradıcılıq, ixtiraçılıq tərəfini və zəkanı inkişaf etdirir.

***"İnkişafetdirici təlimin məzmununun prinsipləri və tələbləri"***adlı yarımfəsildə uşaqların öyrənməsi, qabiliyyətlərinin, müstəqillliyinin və

yaradıcılıq təşəbbüslərinin inkişaf etdirilməsi üçün tərbiyəçi qarşısında aşağıdakı vəzifələr qoyulur:

-inkişafetdirici mühiti müvafiq məzmuna uyğun əşyalarla qurmaq və zənginləşdirmək;

-əşyalardan istifadə etməklə inkişafetdirici mühitin məhsuldarlığını təmin etmək.

İnkişafetdirici oyunların seçilib istifadə edilməsi prinsipləri:

1.Hər bir oyunun istiqamət məqsədi vardır və bütün oyun vəzifələri ona tabe olur.

2.Oyunun davam etməsi uşaqların fəallığı ilə, oyun tapşırığının yerinə yetirilməsinə olan maraqla müəyyən olunur.Uşaqlar daim rəğbətləndirilir, özləri hiss etmədən onlara kömək göstərilir. Bu zaman uşaqlar müvəffəqiyyət hissi keçirir.

3.Oyun tapşırıqları uşağın anlaq və inkişaf səviyyəsinə uyğun, eyni zamanda bir qədər çətin elementləri də özündə ehtiva edir, uşaq səy göstərir, məqsədə çatmaq üçün səbr nümayiş etdirir. Oyunda müşahidə, təhlil, müqayisə və ümumiləşmə kimi idrak fəallığını inkişaf etdirən amillər üstünlük təşkil edir.

4.Oyunda böyüyün iştirakı zəruridir: oyun qaydalarının izahı, hərəkətlərin göstərilməsi, uşaqla bərabər hərəkətlər, tapşırıqların yerinə yetirilməsinə nəzarət, münaqişə situasiyalarının və zədə almanın qarşısının alınması.

5.Oyunları sadədən başlayaraq tədricən mürəkkəbləşdirilməsi və modifikasiya edilməsi.

6.Oyun materialının rəngarəng, maraqlı və müvafiq yaş qrupunun istifadə etməsi üçün yararlı olması.

**“Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin təşkili”** adlıbeşinci fəslin I yarımfəslində qeyd olunur ki, məktəbəqədər müəssisələrində inkişafetdirici təlim məşğələ prosesində və məşğələdənkənar vaxtlarda həyata keçirilir.Məşğələ prosesində aşağıdakı təlim formalarından istifadə olunur:

1.Oyun və oyun - tapşırıqlar.
2.Binar məşğələlər.
3.Məşğələdə şən və hazırcavablar.
4.Səhnələşdirilmiş məşğələ.
5.Məşğələ - yarış.
6.Məşğələ-axtarış.
7.Məşğələ-səyahət.

8.Məşğələ- məsləhət.
9.Məşğələ- disput.
10.Yaradıcı layihələr.

Yarımfəsildə İnkişafetdirici oyun və tapşırıqlar uşağın müxtəlif qabiliyyətlərini, o cümlədən hərəki və idrak fəllığını inkişaf etdirən xüsusi tərtib olunmuş oyunlar olduğu qeyd olunur və göstərilir ki,bu oyunların vasitəsi ilə hiss orqanlarının - görmə, eşitmə, əqli qabiliyyətlərin inkişafına, diqqət və yaddaşın möhkəmlənməsinə nail olmaq, hərəki vərdişlərin mənimsənilməsinə kömək və daha sürətli nitq inkişafına təkan vermək olur.

| Didaktik parametrlər | Ənənəvi təlim | İnkişafetdirici təlim |
|---|---|---|
| 1 | 2 | 3 |
| Məqsəd | Bilik, bacarıq və vərdiş-lərin formalaşdırılması. Biliklərin nümunə əsasında tətbiqi | Şəxsiyyətin psixi keyfiyyət-lərinin inkişaf etdiril-məsi.Biliklərin yeni şərait-də tətbiqi. |
| Mahiyyət | İnformasiyaların veril-məsi, dərk edilməsi, möhkəmləndirilməsi, mənimsəmənin yoxla-nılması | Təhsilalanın müstəqil təd-qiatçılıq fəaliyyətinə qoşul-ması: probleminhəlli, fəa-liyyətin yeni qaydalarının mənimsənilməsi |
| Tətbiqetmə imkanları | Praktik olaraq həmişə mümkündür | Təhsilalanların problemlə bağlı baza bilikləri və idrak bacarıqları olduğu təqdirdə müəllim və təhsilalanların axtarıcılıq fəaliyyətini təş-kil etdikdə mümkündür |
| Üstünlükləri | Bilik,bacarıq və vərdiş-lər sisteminin formalaş-ması üçün şərait yaradır. Vaxta qənaət olunur. Müəllim şəxsiyyətinin (elmə olan yüksək marağının, zəngin mənə-viyyatının, yüksək mə-dəniyyətinin) rolu bö-yükdür | Maraqları, təfəkkürü və digər psixi prosesləri in-kişaf etdirir. Təhsilalanları özünütəhsil prosesinə təhrik edir. Diskussiya bacarığı və mədəniyyəti formalaşdırır |

| | | |
|---|---|---|
| Prinsipial xarakterli çətinliklər | Qrupun diqqətini cəlb etmək. Qavramanı idarə etmək. Təlimi fəallaşdırmaq. Əks-əlaqə şəraiti yaratmaq | Ənənəvi təlimlə müqayisədə çox vaxt tələb olunur.Hər bir təhsilalan tədqiqatçılıq fəaliyyətinəcəlb edir. |

**Şək.4. Ənənəvi və inkişafetdirici təlimin digər parametrlər əsasında müqayisəsi**

Sosial-psixoloji mühitə həm uşağı əhatə edən insanlarla (təlim prosesinin bilavasitə və bilvasitə uşaqları ilə), həm də öz daxili aləmi ilə təlimə marağının formalaşmasına təsir edən qarşılıqlı əlaqələrinin bütün növləri daxildir:-"uşaq-uşaq";"tərbiyəçi-uşaq";"tərbiyəçi-uşaq-valideyn";"müdir-uşaq";"müdir-uşaq-valideyn";"ailə-uşaq";"dostlar-uşaq".




**Sxem 2.Uşaq bağçasında şəxsiyyətin formalaşması üçün yaradılan mühit**

Yarımfəsildə belə qənaətə gəlinir ki, ailə və uşaq bağçası -hər biri ayrılıqda uşağa sosial təcrübə verir. Lakin onların birgə əməkdaşlığı uşağın böyük aləmə daxil olması üçün optimal şərait yaradır.

Beşinci yarımfəsil***"Pedaqoji eksperimentin nəticələrinin yekunlaşdırılması və təhlili"*** adlanır.

Müəyyənedici eksperiment mərhələsində konkret olaraq aşağıdakı məsələlərin öyrənilməsi planlaşdırılmışdır:

1) Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsində inkişafetdirici oyun və oyun – tapşırıqların rolu;

2) Uşaqlarda qrammatik vərdişlərinvə rabitəli nitqin formalaşmasına inkişafetdirici oyun və oyun-tapşırıqların təsiri;

3) Uşaqlardaməntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsində oyun və tapşırıqların rolu;

4) Uşaqlarda diqqətin inkişaf etdirilməsində oyun və tapşırıqların rolu.

Bu məqsədlə Bakının 11, 112, Mingəçevir şəhərinin 1 saylı uşaq bağçalarını kontrol, Bakının 119, 240, Mingəçevir şəhərinin 10 saylı uşaq bağçaları eksperimental qrup kimi götürülmüşdür.

Əvvəlcə, bağçalarda uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi ilə bağlı görülən işləri öyrəndik, mövcud vəziyyətin diaqnostikasını həyata keçirdik. Eksperimentə cəlb etdiyimiz bağçalarda vəziyyət aşağıdakı kimi oldu.

**Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsində inkişafetdirici oyun və oyun – tapşırıqların rolu**

**Cədvəl 5.1**

| | Uşaq bağçaları | Uşaqların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 1(5,5) | 8(44,5) | 9(50) |
| | 112 № li u/b | 19 | 2(10,5) | 7(36,8) | 10(52,7) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 8(36,4) | 10(45,4) |
| Eksperimental qruplar | 119 № li u/b | 23 | 2(8,7) | 9(39,1) | 12 (52,2) |
| | 240 № li u/b | 21 | 3(14,3) | 10(47,6) | 8 (38,1) |
| | 10 № li u/b | 20 | 3 (15) | 9 (45) | 8 (40) |

Konrtop qruplarda 59 uşaq, eksperimental qruplarda 64 uşaq tədqiqata cəlb olunmuşdur. Müəyyənedici eksperiemnt zamanı 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 1 (5,5) nəfəri yüksək, 8 (44,5) nəfəri orta, 5 (50) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 2 (10,5) nəfər yüksək,

7 (36,8) nəfər orta, 10 (52,7) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4(18,2) nəfər yüksək, 8 (36,4) nəfər orta, 10 (45,4) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə 119 saylı uşaq bağçasında 23 nəfərdən 2 (8,7) nəfər yüksəkı, 9 (39,1) nəfər orta, 12 (52,2) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 3(14,3) nəfər yüksək, 10 (47,6) nəfər orta, 8 (38,1) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 3 (15) nəfər yüksək, 9 (45) nəfər orta, 8 (40) nəfər aşağı nəticə göstərmişdir.

Uşaqlarda qrammatik vərdişlərinvə rabitəli nitqin formalaşmasına inkişafetdirici oyun və oyun-tapşırıqların təsiri ilə bağlı mövcud vəziyyətin araşdırılması zamanı məlum oldu ki, kontrol qruplarda tədqiqata cəlb olunan 59 nəfərdən 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 2(11,1) nəfəri yüksək, 7 (38,9) nəfəri orta, 9 (50) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 1 (5,2) nəfər yüksək, 9 (47,4) nəfər orta, 9 (47,4) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4 (18,2) nəfər yüksək, 8 (36,4) nəfər orta, 10 (45,4) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 1(4,4) nəfər yüksək, 11 (47,8) nəfər orta, 11 (47,8) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 2 (9,5) nəfər yüksək, 9 (42,9) nəfər orta, 10 (47,6) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 3 (15) nəfər yüksək, 8 (40) nəfər orta, 9 (45) nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

**Uşaqlarda qrammatik vərdişlərinvə rabitəli nitqin formalaşmasına inkişafetdirici oyun və oyun-tapşırıqların təsiri**

**Cədvəl 5.2**

| | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 2(11,1) | 7(38,9) | 9(50) |
| | 112 № li u/b | 19 | 1(5,2) | 7(47,4) | 9(47,4) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 8(36,4) | 10(45,4) |
| Eksperimental qruplar | 119 № li u/b | 23 | 1(4,4) | 11(47,8) | 11 (47,8) |
| | 240 № li u/b | 21 | 2(9,5) | 9(42,9) | 10 (47,6) |
| | 10 № li u/b | 20 | 3 (15) | 8 (40) | 9 (45) |

**Uşaqlarda məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsində oyun və tapşırıqların rolu**

**Cədvəl 5.3**

| Kontrol qruplar | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| | 11№li u/b | 18 | 4(22,2) | 12(66,7) | 2(11,1) |
| | 112 № li u/b | 19 | 3(15,8) | 11(57,9) | 5(26,3) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 8(36,4) | 10(45,4) |
| Eksperi-mental qruplar | 119 № li u/b | 23 | 7(30,4) | 14(60,9) | 2 (8,7) |
| | 240 № li u/b | 21 | 6(28,6) | 14(66,6) | 1(4,8) |
| | 10 № li u/b | 20 | 5 (25) | 13 (65) | 2 (10) |

Cədvəldən görünür ki, kontrol qruplarda 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 4(22,2) nəfəri yüksək, 12 (66,7) nəfəri orta, 2 (11,1) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 3 (15,8) nəfər yüksək, 11 (57,9) nəfər orta, 5(26,3) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4 (18,2) nəfər yüksək, 8(36,4) nəfər orta, 10 (45,4) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 7 (30,4) nəfər yüksək, 14 (60,9) nəfər orta, 2 (8,7) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 6 (28,6) nəfər yüksək, 14 (66,6) nəfər orta, 1 (4,8) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 5 (25) nəfər yüksək, 13 (65) nəfər orta, 2 (10) nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

**Uşaqlarda diqqətin inkişaf etdirilməsində oyun və tapşırıqların rolu.**

**Cədvəl 5.4**

| Kontrol qruplar | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| | 11№li u/b | 18 | 4(22,2) | 8(44,5) | 6(33,3) |
| | 112 № li u/b | 19 | 3(15,8) | 7(36,8) | 9(47,4) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 10(45,4) | 8(36,4) |
| Eksperi mental qruplar | 119 № li u/b | 23 | 3(13) | 9(39,1) | 11 (47,9) |
| | 240 № li u/b | 21 | 4(19) | 8(38) | 9 (42,9) |
| | 10 № li u/b | 20 | 4 (20) | 7 (35) | 9 (45) |

Cədvəldən də görünür ki, kontrol qruplarda 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 4(22,2) nəfəri yüksək, 8(44,5) nəfəri orta, 6(33,3)nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 3(15,8) nəfər yüksək, 7(36,8) nəfər orta, 9(47,4) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4(18,2) nəfər yüksək, 10(45,4) nəfər orta, 8(36,4) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 3(13) nəfər yüksək, 9(39,1) nəfər orta, 11 (47,9) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 4(19) nəfər yüksək, 8(38) nəfər orta, 9 (42,9) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 4 (20) nəfər yüksək, 7 (35) nəfər orta, 9 (45)nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

Eksperimentin yoxlayıcı mərhələsində öyrədici metodikanın səmərəliliyi müəyyənləşdi və uşaqların lüğət ehtiyatının zənginləşdiril-məsində,qrammatik vərdişlərinvə rabitəli nitqin formalaşmasında,məntiqi və tənqidi təfəkkürün,diqqətin inkişaf etdirilməsində inkişafetdirici oyun və oyun-tapşırıqların rolu və təsiri meyarlar üzrə həyata keçirildi.

**Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsində inkişafet-dirici oyun və oyun – tapşırıqların rolu**

**Cədvəl 5.5**

| Kontrol qruplar | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 1(5,5) | 10(55,5) | 7(39) |
| | 112 № li u/b | 19 | 2(10,5) | 8(42,1) | 9(47,4) |
| | 1 №li u/b | 22 | 5(22,7) | 8(36,4) | 9(40,9) |
| Eksperim ental qruplar | 119 № li u/b | 23 | 4(17,4) | 14(60,9) | 5 (21,7) |
| | 240 № li u/b | 21 | 5(23,8) | 14(66,7) | 2 (9,5) |
| | 10 № li u/b | 20 | 5 (25) | 13 (65) | 2 (10) |

Yoxlayıcı eksperiment zamanı məlum oldu ki, kontrol qruplarda 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 1(5,5) nəfəri yüksək, 10(55,5) nəfəri orta, 7(39)nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 2(10,5) nəfər yüksək, 8(42,1) nəfər orta, 9(47,4) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 5(22,7) nəfər yüksək, 8(36,4) nəfər orta, 9(40,9) nəfər aşağı nəticə göstərmişdir.

Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 4(17,4) nəfər yüksək, 14(60,9) nəfər orta, 5 (21,7) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 5(23,8) nəfər yüksək, 14(66,7) nəfər orta, 2 (9,5) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 5 (25) nəfər yüksək, 13 (65) nəfər orta, 2 (10) nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

**Uşaqlarda qrammatik vərdişlərinvə rabitəli nitqin formalaşmasına inkişafetdirici oyun və oyun-tapşırıqların təsiri**

**Cədvəl 5.6**

| | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 3(16,7) | 8(44,4) | 7(38,9) |
| | 112 № li u/b | 19 | 2(10,5) | 11(57,9) | 6(31,6) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 10(45,4) | 8(36,4) |
| Eksperim ental qruplar | 119 № li u/b | 23 | 4(17,4) | 17(74) | 2 (8,6) |
| | 240 № li u/b | 21 | 4(19) | 16(76,2) | 1(4,8) |
| | 10 № li u/b | 20 | 6 (30) | 14 (70) | - |

Cədvəldən göründüyü kimi, kontrol qruplarının təlim göstəriciləri aşağıdakı kimi olmuşdur. 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 3(16,7) nəfəri yüksək, 8(44,4) nəfəri orta, 7(38,9) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 2(10,5) nəfər yüksək, 11(57,9) nəfər orta, 6(31,6) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4(18,2) nəfər yüksək, 10(45,4) nəfər orta, 8(36,4) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 4(17,4) nəfər yüksək, 17(74) nəfər orta, 2 (8,6) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 4(19) nəfər yüksək, 16(76,2) nəfər orta, 1(4,8)aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 6 (30) nəfər yüksək, 14 (70) nəfər orta səviyyədə tapşırıqları yerinə yetirmişdir.

**Uşaqlarda məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsində oyun və tapşırıqların rolu**

**Cədvəl 5.7**

| | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 3(16,7) | 11(61,1) | 4(22,2) |
| | 112 № li u/b | 19 | 2(10,5) | 9(47,4) | 8(42,1) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 7(31,8) | 11(50) |
| Eksperimental qruplar | 119 № li u/b | 23 | 4(17,4) | 8(34,8) | 11 (47,8) |
| | 240 № li u/b | 21 | 3(14,4) | 9(42,8) | 9 (42,8) |
| | 10 № li u/b | 20 | 3 (15) | 7 (35) | 10 (50) |

Uşaqlarda məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsində oyun və tapşırıqlar mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə kontrol və eksperiment qruplarda oyun və tapşırıqların məntiqi və tənqidi təfəkkürün inkişafa təsiri öyrənilmişdir. Müəyyənedici eksperiment zamanı məlum oldu ki, kontrol qruplarda 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 3(16,7) nəfəri yüksək, 11(61,1) nəfəri orta, 4(22,2) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 2(10,5) nəfər yüksək, 9(47,4) nəfər orta, 8(42,1) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4(18,2) nəfər yüksək, 7(31,8) nəfər orta, 11(50) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 4(17,4) nəfər yüksək, 8(34,8) nəfər orta, 11 (47,8) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 3(14,4) nəfər yüksək, 9(42,8) nəfər orta, 9 (42,8) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 3 (15) nəfər yüksək, 7 (35) nəfər orta, 10 (50) nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

**Uşaqlarda diqqətin inkişaf etdirilməsində oyun və tapşırıqların rolu**

**Cədvəl 5.8**

| | Uşaq bağçaları | Uşaq-ların sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| Kontrol qruplar | 11№li u/b | 18 | 5(27,8) | 9(50) | 4(22,2) |
| | 112 № li u/b | 19 | 3(15,8) | 8(42,1) | 8(42,1) |
| | 1 №li u/b | 22 | 4(18,2) | 11(50) | 7(31,8) |
| Eksperim ental qruplar | 119 № li u/b | 23 | 5(21,8) | 15(65,2) | 3 (13) |
| | 240 № li u/b | 21 | 7(33,3) | 12(57,1) | 2 (9,6) |
| | 10 № li u/b | 20 | 6 (30) | 13 (65) | 1 (5) |

Kontrol qruplarda 59 nəfər tədqiqata cəlb edilmiş, onlardan 11 saylı uşaq bağçasında 18 nəfər uşaqdan 5(27,8) nəfəri yüksək, 9(50) nəfəri orta, 4(22,2) nəfəri aşağı, 112 saylı uşaq bağçasında 19 nəfərdən 3(15,8) nəfər yüksək, 8(42,1) nəfər orta, 8(42,1) nəfər aşağı, 1 saylı uşaq bağçasında 22 nəfərdən 4(18,2) nəfər yüksək, 11(50) nəfər orta, 7(31,8) nəfər aşağı nəticə göstərmişdir. Eksperiemntal qruplarda isə tədqiqata 64 nəfər cəlb edilmişdir. 119 saylı uşaq bağçasında 23 nəfərdən 5(21,8) nəfər yüksək, 15(65,2) nəfər orta, 3 (13) nəfər aşağı, 240 saylı uşaq bağçasında 21 nəfərdən 7(33,3) nəfər yüksək, 12(57,1) nəfər orta, 2 (9,6) aşağı, 10 saylı uşaq bağçasında 20 nəfərdən 6 (30) nəfər yüksək, 13 (65) nəfər orta, 1 (5) nəfər aşağı səviyyədə tapşırıqları yerinə yetirmişdir.

Beləliklə, yoxlayıcı mərhələdə uşaqların inkişaf səviyyəsinin bütün göstəricilər üzrə (bilik səviyyəsi, idrak fəallığı, müstəqil fikir söyləmə bacarığı, özünüqiymətləndirmə, yaşıdları ilə ünsiyyət, məktəb təliminə hazırlıq motivasiyası) daha yüksək olduğu sübut olundu.

Tədqiqat zamanı aşağıdakı **nəticəyə** gəlinmişdir:

1.İnkişafetdirici təlim fəal təlim formalarından biri olan tam pedaqoji sistemdir. O, uşağın idraki, intellektual inkişafı üçün şərait yaradır və onun şəxsiyyətinin qabaqlayıcı inkişafina müsbət təsir göstərir, yeni sosial mühitə müvəffəqiyyətlə adaptasiya olunmasına hazırlayır. Inkişafetdirici təlimi təşkil edərkən, müvəffəqiyyət qazanmaq üçün həm şəxsiyyətin inkişaf qanunauyğunluqları, həm də hər bir fərdin özünəməxsus xüsusiyyətlərini və inkişaf səviyyələrini nəzərə alaraq müvafiq şərait yaratmaqla

qabaqlayıcı metod və texnologiyalardan istifadə etmək zəruridir.

2.Elmi-pedaqoji ədəbiyyatın təhlili, məktəbəqədər təhsil müəssisələrinin təcrübəsi və müəyyənedici eksperimentin nəticələri göstərdi ki, tərbiyəçi və müəssisə rəhbərləri nə təlim prosesində, nə də məşğələdənkənar vaxtlarda təfəkkürün inkişafetdirici vasitəsi kimi inkişafetdirici təlim formalarının istifadəsinə kifayət qədər diqqət yetirmirlər.

3.Dissertasiyada təlim prosesində və məşğələdənkənar vaxtlarda inkişafetdirici təlimin səmərəli sisteminin nəzəri məsələləri müəyyənləşdirilmiş, problemə yeni yanaşmalar aşkar edilmiş və təlimin müxtəlif təşkili formalarında reallaşan pedaqoji texnologiyalar təhlil edilmişdir.

4.İnkişafetdirii təlimə pedaqoji proses subyektlərinin qarşılıqlı təsirini, məqsədlərini, məzmununu, metod və təlim nəticələrini nəzərə alan tam bir pedaqoji sistem kimi baxılır.

5.Təlimin nəzəri və praktik təhlili inkişafetdirici təlimin təşkilinin səmərəli sisteminin layihəsini müəyyənləşdirməyə imkan verdi. Təqdim olunan təlim prosesinin didaktik modeli təlimin təşkili formalarından və onların optimal birləşməsindən və məqsəd, məzmun nəticəyönümlü qiymətləndirmədən ibarətdir. Bu model əsasında müxtəlif məqsədli inkişafetdirici təlim sistemi yaradılır. Bu modelin reallaşdırılması metodikası hər bir mərhələdə (müəyyənedici, öyrədici, kontrol) onun reallaşdırılmasını nəzərdə tutur.

6.Modelin səmərəliliyinin eksperiment yolu ilə yoxlanılması və metodikanın reallaşdırılması irəli sürülən fərziyyənin doğruluğunu isbat etdi və qaşıya qoyulan vəzifələrin həll olunduğunu göstərdi.

7.Məktəbəqədər təhsil müəssisəsində yaranmış estetik mühit uşaqlarda sevinc hissi yaradır, uşaq bağçasına emosional - müsbət münasibət aşılayır.Uşaqlar məmnuniyyətlə bağçaya gəlir və yeni bilik və təəssüratlarla zənginləşir, yaradıcı fəaliyyətə səy göstərirlər ki, bu da intellektual inkişafa təsir edir.

8.İnkişafetdirici mühitşəxsiyyətin inkişafı və ona məxsus fəaliyyət növlərinin hərəkətverici qüvvəsidir.O,müxtəlif qabiliyyətlərin, uşağın subyektiv keyfiyyətlərinin formalaşmasına təsir edir, müxtəlif fəallıq növlərini stimullaşdırır, qrupda əlverişli psixoloji iqlim yaradır, real və müxtəlif şərait yaratmaqla müstəqilliyi aktivləşdirir.

9.Son illər uşaq bağçalarında “uşaqyönümlü”,“inkişafyönümlü” ideyalar geniş yayılmışdır. Birincisi, əgər təlim vəzifələrinin yerinə yetirilməsində tərbiyəçi uşaqlarla bərabər işləyirsə, burada inkişafetdirici təlimdən söhbət gedə bilməz. İkincisi, inkişafetdirici metodların bəzi kompo-

nentlərinin təcrübəyə daxil edilməsi ənənəvi təlimin səmərəliliyini artıra bilər, lakin onu inkişafetdirici təlimə çevirə bilməz. Bunlar o qədər də ənənəvi təlimin məzmununa nəzəri biliklərin daxil edilməsinə aid deyil. Bu elementlər lazımi kimi seçildikdə, onlarbacarıqların səmərəli formalaşmasını müvafiq vəzifələri daha rasional və ümumiləşmiş alqoritmlə həyata keçirərək əhəmiyyətli dərəcədə nəticə əldə edirlər.

10.Müasir məktəbəqədər təhsil müəssisələri şəraitində məktəb təliminə hazırlığın şərti kimi təhsil, tərbiyə və inkişafetdirici vəzifələrin inteqrasiyası zəruridir. Bu üçlük pedaqoji sistemə həyatda yaşamaq qabiliyyəti və bütövlük verir. Bu təlim vahidlərindən birinin nəzərə alınmaması və ya zəifliyi uşağın şəxsiyyətinin inkişafında pozuntulara səbəb olur.

11.Uşaqların məktəb təliminə hazırlanmasına təsir edən şərtlər müəyyənləşdirildi: uşaqlarla qarşılıqlı təsirdə məqsədə nail olmaq üçün məqsəd və fəaliyyətin uyğunluğu; pedaqoqun uşağın intellektinə, tələbatlarına, şəxsiyyətinə təsirinin intensivliyi; iştirakçıların pedaqoji qarşılıqlı təsirdə fəallığı, təhsil proqramlarının və texnologiyalarının gigienik ekspertizasının həm pedaqoq, həm fizioloq, həm də tibb işçiləri tərəfindən keçirilməsi məqsədəuyğundur.

12.İnkişafetdirici əşya mühitini təşkil edərkən uşaqların ehtiyacları, maraqları, tələbatları, imkanları və vərdişləri nəzərə alınır.Bu, təhsilin şəxsiyyətyönümlü modeli ilə müəyyənləşir və hər bir uşaqda psixoloji cəhətdən müdafiə hissi və rahatlıq formalaşdırır.

13.İnkişafetdirici təlim prosesində 5-6 yaşlı uşaqlarda fərdi xüsusiyyətləri saxlamaqla əqli işgüzarlıq təkmilləşir. Bu faktlar günün müxtəlif saatları və həftə ərzində həqiqi və fizioloji cəhətdən əhəmiyyətini göstərdi. Əqli işgüzarlıq uşağın funksional vəziyyətinin inteqral göstəricisidir vəonun müxtəlif təlim fəaliyyətinə, eyni zamanda təlim yükünə adaptasiyasını əks etdirir. Əqli işgüzarlığın parametrləri orqanizmin funksional vəziyyətini xarakterizə edən başqa göstəricilərlə də uzlaşır.

14. İnkişafetdirici təlim işləmələrinin eksperimental tədqiqi prosesində təlim fəaliyyətinin uşaqların təfəkkürünə, fərdi-şəxsi xüsusiyyətlərinə,tərbiyəçinin fəaliyyətinin əsasını təşkil edən mövqeyinə, roluna təsiri öyrənildi. Bunu aşağıdakı kimi qruplaşdırmaq olar:

a)birinci, inkişafetdrici təlim 5-6 yaşlı uşaqlarda yüksək səviyyədə ümumiləşmənin, fikri əməliyyatların – təhlil, refleksiya və planlaşdırma ilə bağlı nəzəri fikri fəaliyyətin inkişafı üçün əlverişli şərait yaradır;

b)ikinci, müəyyən edilmişdir ki, inkişafetdirici təlim uşaqlarınimkanlarının aktual səviyyəsini və təlim-idraki motivasiyanın

yüksək səviyyəsinin formalaşdırılmasını nəzərə alan fərqli özünüqiymətləndirmə və iddiaların inkişafını təmin edir. Uşaqların fərdi-şəxsi keyfiyyətlərinin tədqiqinin nəticələri göstərdi ki, inkişafetdirici təlim şəraitində uşaqlar ilin sonunda fərqli özünüqiymətləndirməni həyata keçirir. Lakin ənənəvi təlim şəraitində isəuşaqlarda bu cəhət müşahidə olunmur.

c)üçüncü, inkişafetdirici təlim şəraitində tərbiyəçinin fəaliyyətində aparıcı rol oynayan mövqe və rol strukturları ənənəvi təlim üsulu ilə işləyən tərbiyəçilərdə müşahidə olunmadı. İnkişafetdirici təlim məşğələlərində tərbiyəçi iki rolda çıxış edir: diskussiyanın təşkilatçısı və iştirakçısı. Bu, ən çox təlim vəzifələrinin qoyuluşunda özünü büruzə verdi.

ç)dördüncü, inkişafetdirici təlim layihəsinin təhlili nəticəsində onun mərhələləri və komponentlərini, məqsəd,məzmun, metod və formalarına olan tələbləri müəyyənləşdirməyə, tərbiyəçi-uşaq münasibətlərinin qarşılıqlı təsirinin əsas tiplərini göstərməyə imkan yarandı.

d) inkişafetdirici təlim layihəsini həyata keçirilməsi prosesində tərbiyəçi hazırlığı üçün məzmunun, metodların reallaşdırılması üçün iş formalarının sistemi göstərildi.

16.Valideynlərlə apardığımız işlər "humanist pedaqogika"nın prinsipləri çərçivəsində reallaşdırılmışdır. Onlar tərbiyəçinin uşağa həssas münasibətini, ali və incə mədəniyyətini, uşağı valideyn qarşısında gözdən salmamasını, öz övladına qarşı aqressivlik yaratmamasını, əksinə, onun müsbət tərəflərini daha çox göstərməyə çalışmasının şahidi oldular. Bu cür uşaqların qabiliyyətlərinin inkişafı evdə də davam etdirilir. Uşağın sevinclə bağçaya getməsi onu göstərir ki, onun daxili təbiəti burada inkişaf və təzahür edir.

Ailə, uşaq bağçası və məktəbin qarşılıqlı əlaqəsi elmi və pedaqoji cəhətdən düzgün qurulduqda həm bağçada, həm də sonralar məktəbdə iş səmərəli olur, təlim-tərbiyə prosesində varisliyi gözləmək asanlaşır.

Əgər biz gələcəyimizi xoşbəxt görmək istəyiriksə, ən önəmli məsələ məktəbəqədər təhsil sahəsinə bu işə marağı, istəyi, həvəsi olan, fiziki və psixi cəhətdən sağlam, dilində qüsuru olmayan, istedadlı abituriyentlərin cəlb olunmasına şərait yaratmalıyıq. Təəssüf ki, test yolu ilə bu vacib keyfiyyətləri aşkar etmək olmur. Buna görə də əvvəlki illərdə olduğu kimi qabiliyyət imtahanlarının tətbiqi zəruridir.

Aparılan tədqiqat işi bu problemin gələcəkdə daha dərindən öyrənilməsi üçün bu istiqamətlərdə perspektivlər açır: müxtəlif yaşlı uşaqlar üçün inkişafetdirici təlim metodları, inkişafetdirici təlim məşğələlərinin təşkili formaları və üsulları, onlardan optimal istifadə edilməsi.

Məktəbəqədər təhsilin bütün pillələri üçün inkişafetdirici təlim üzrə (bakalavriat, magistratura, ixtisasartırma və yenidənhazırlanma) proqram və metodik vəsaitlərin tərtibi məqsədəuyğundur.

İxtisasartırma və yenidənhazırlanma təhsilində modul təlimlərə geniş yer verilməsi zəruridir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan müdirin, tərbiyəçinin və musiqi rəhbərinin şəxsi inkişaf planının olması zəruridir.

Məktəbəqədər təhsilin kurikulumunun elmi-nəzəri əsasları, daha doğrusu pedaqoji, psixoloji, fizioloji, didaktik və fəlsəfi əsaslarının işlənilməsi məqəsədəmüvafiqdir.

Uşaqların inkişafının təmin edilməsində valideynlərlə tərbiyəçilərin birgə fəaliyyəti üzrə aparılan iş səmərəli nəticə verir. Bu məqsədlə valideynlərin pedaqoji biliklərinin artırılması üçün forma və metodların işlənilməsi, tətbiqi zəruridir.

Dissertasiyanın başlıca müddəalarıöz tətbiqiniaşağıdakı **nəşrlərdə** tapmışdır:

1.Ümumtəhsil məktəblərdə yeni təlim metod və texnologiyalardan istifadənin xüsusiyyətləri /ADPU-63-ci elmi konfransının materialları.IV buraxılış, Bakı,2003

2.Ali məktəb tələbələrində müasir təlim metod və texnologiyaları üzrə bilik,bacarıqların formalaşdırılması //Elmi-məqalələr toplusu, 2005, III buraxılış. s.11-13

3.Təlim texnologiyalarından istifadənin didaktik şərtləri // Elmi-məqalələr toplusu, 2004, II buraxılış, s.129-133

4.Məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji prosesin təşkili // Elmi-məqalələr toplusu, 2006, IV buraxılış. s.17-21

5.Təlim prosesində mənəvi tərbiyə üzrə işin imkanları //İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2008, №4, s.46-52

6.Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasının nəzəri və praktik məsələləri //Dil və ədəbiyyat, 2009, .№ 3 (58), s.229-231

7.Pedaqoji kadr hazırlığının vəzifələri, perspektivləri / "Pedaqoji kadr hazırlığının vəzifələri, perspektivləri"mövzusunda Beynəlxalq Simpoziumun materialları. Naxçıvan, 2009, s.203-207

8.Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsində yeni yanaşmalar. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2009, №3-4, s.320-323

9.Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişaf

etdirilməsindəpedaqoji prosesin düzgün təşkilinin əhəmiyyəti // Kurikulum jurnalı, 2009, №4, s.41-46

10.Uşaqların məktəb təliminə hazırlığının zəruriliyi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər,2010, №1, s.151-154

11.Ailədə və məktəbəqədər təhsil müəssisələrində uşaqların nitqinin inkişafı üzrə işin təşkili // Məktəbəqədər və ibtidai təhsil, 2010, № 4, səh. 22-30

12.Məktəbəqədər yaşlı uşaqların təlim hazırlığına aid didaktik tapşırıqlar. Didaktik vəsait.Bakı: Nasir, 2010, 102 s.

13.Uşaq bağçalarında gəzintilərin təşkili. Metodik vəsait. Bakı: Apostrof, 2011, 79s.

14.İnkişafetdirici təlimin nəzəri məsələləri haqqında //Azərbaycan məktəbi,2011, № 6, s.38-43

15. İnkişafetdirici təlimin nəzəri məsələləri haqqında //Azərbaycan məktəbi, 2011, №6, s. 38-43

16.Məktəbəqədər təhsilin məzmununa verilən müasir tələblər // Kurikulum jurnalı, 2011, №3, s.34-37

17.Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı. Metodik vəsait. Bakı:ADPU, 2012,122 s.

18.Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin problemləri / "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı,28 iyun 2012, s.53-55

19.Məktəbəqədər təhsil inkişafetdirici təlim paradiqmasında // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2014, №1, s.134-137

20.Məktəbəqədər pedaqoji kadrların hazırlanmasında inkişafetdirici təlimin tədrisi məsələləri /"Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları.Naxçıvan,16-17 dekabr 2014-cü il, s.103-104

21.Məktəbəqədər yaşlı uşaqların təlim yükünün müəyyənləş-dirilməsi // Məktəbəqədər və ibtidai təhsil, 2014, №4, s.32-35

22.İnkişafetdirici təlimin keyfiyyətə təsiri//Azərbaycan məktəbi, 2015, №6, s. 38-43

23.Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin problemləri/"Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda Respublika elmi kon-fransının materialları. Bakı, 28 iyun 2012, s.53-55

24.Məktəb təliminə hazırlığın pedaqoji əsasları fənninin proqramı. (bakalavr hazırlığı). Bakı, ADPU,2013,23s.

25.Kadr hazırlığında İKT-nin, yeni təlim üsulları və texnologiyaların tətbiqi dövrün tələbi kimi / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 6 dekabr 2013, s.125-126

26.Содержание дощкольного образования в Азербайджане: новые подходы."Психология и педагогика в системе гуманитарного знания" материалы V Международной научно-практической конференции. Москва, 27-28 декабря, 2012, с.11-14

27.Современное дощкольное образование в Азербайджане / «Психология и педагогика в системе гуманитарного знания» Материалы VII Международной научно-практической конференции, Москва, 28-29 июня 2013, s.109-114

28.Роль интегративного обучения в развивающем обучении дошкольников. XVII Вишняковские чтения «Вузовская наука:условия эффективности социално-экономического и културного развития региона»:материалымеждунар.науч.конф.,28 марта 2014, Бокситогорск/под общ.ред.к.п.н.Н.В.Поликутиной,СПб,2014, 256с. s. 83-86

29.Məktəbəqədər təhsil inkişafetdirici təlim paradiqmasında //Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər,2014, №1, s.134-137

30.Из опыта работы дощкольных учреждений Азербайджана по курикулуму как развивающего обучения // Вектор науки ТГУ, Серия: Педагогика, психология, 2014, № 3 (18), s.25-27

31.Məktəbəqədər pedaqogika fənninin proqramı. (bakalavr hazırlığı), Bakı: ADPU, 2015, 36 s.

32.Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar fənninin proqramı (magistr hazırlığı). Bakı: ADPU, 2015, 28 s.

33.Məktəbəqədər təhsildə kurikulum islahatı fənninin proqramı. (magistr hazırlığı), Bakı: ADPU, 2015, 29 s.

34.Məktəbəqədər müəssisələrə rəhbərlik fənninin proqramı (bakalavr hazırlığı). Bakı: ADPU, 2015, 27 s.

35.Məktəbəqədər təhsil: konseptual problemlər. Monoqrafiya. Bakı: Elm və təhsil, 2015, 308 s.

36.İnkişafetdirici təlimin şəxsiyyətin formalaşmasında rolu /"Müəllim hazırlama siyasəti və problemləri" mövzusunda V Beynəlxalq

Konfransın Materialları.Bakı, 30 aprel 2015-ci il, s.347-349

37.Uşaqların inkişafında valideynlərlə əlbir işin yolları // Məktəbəqədər və ibtidai təhsil, 2015, №3, s.20-24

38.Uşağın məktəbəqədər təhsil müəssisüələrinə adaptasiya edilməsində inkişafetdirici təlimin rolu //Bakı Qızlar Universiteti, Elmi əsərlər,2015, №2, s.168-173

39.İnkişafetdirici təlimin keyfiyyətə təsiri // Azərbaycan məktəbi, 2015, №4, s.48-53

40.XXI əsrdə məktəbəqədər təhsilin məzmunu / "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq elmi konfransın materialları.Naxçıvan, 5-6 iyun 2015, s.71-73

41.Psychological and pedagogical features of developing training in pre-school education // "International Journal of Biology, Pharmacy and Allied Sciences (IJBPAS)",2015, s.247-251

42.Пути повышения качества профессионализма воспитателей-педагогов при внедрении в практику дошкольных образовательных учреждений развивающего обучения // Наукового журналу «Science Rise» Педагогiчна освiта, №10/5(15), 2015, с.71-75

43. Роль интерактивного обучения в развивающем обучении дошкольников.Психолого-социальнаяработа в современномобществе: проблемы и решения:материалы международных научно-практических конференций, г.Санкт-Петербург.Гос.Инст.Психол.и Соц.Работы 21-22 апреля, 2016, с.231-233

44.Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunması məsələləri. Kitab. Bakı: Təhsil Texnologiyaları. Mərkəzi, 2016, 250 səh.

45. Məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində inkişafetdirici təlimin rolu // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2016, №1, s.213-219

46.Məktəbəqədər təhsil müəssisələrində uşağın sosial adaptasiyasının təmin edilməsi // Məktəbəqədər və ibtidai təhsil,2016, №1, s.18-23

47. Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında pedaqoji prosesin rolu // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2016, №1, s.102-107

48.Məktəbəqədər təhsilin məzmununa yeni yanaşmalar / "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq konfrans. Bakı, oktyabr 2016, s.256-258

49.Məktəbəqədər təhsil proqramının (kurikulumunun) səmərəli reallaşdırılmasında inkişafetdirici təlim mühitinin rolu //Bakı Qızlar

Universiteti, Elmi əsərlər, 2016, №3, s.102-106

50.Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin təşkili yolları // Məktəbəqədər və ibtidai təhsil,2017, №1, s.25-32

51. Pedaqoji proses məktəbəqədər yaşlı uşaqların ümumi inkişafını təmin edən mühit kimi // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2017, №3, s.141-145

52.Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin praktik məsələləri // Məktəbəqədər və ibtidai təhsil, 2017, №3, s.31-37

53.Характер игр и заданий, оказывающих влияние на развитие детей / Преемственность между дошкольной и начальной ступенями образования как фактор реализации задач ФГОС. I Международной научно-практической конференции. 18 ноября 2017 года, г. Грозный. – Махачкала: АЛЕФ (ИП Овчинников М.А.), с.159-165

54.Пути повышения профессионализма педагога-воспитателья в реализации развивающего обучения в дошкольных образовательных учреждениях // Науковийвісник Міжнародногогуманітарного університету.Серія:«Філологія», 2017, s. 65-69

55.Məktəb təliminə hazırlığın əsasları fənninin proqramı (bakalavr hazırlığı). Bakı: ADPU, 2017, 23s.

56.Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiya və innovasiyalar fənninin proqramı (bakalavr hazırlığı). Bakı: ADPU, 2017, 28s.

57.Texnologiya və onun tədrisi metodikası fənninin proqramı (bakalavr hazırlığı). Bakı: ADPU, 2017, 25s.

58.Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin psixoloji və pedaqoji əsasları / "Əbdül Əıizadə: Ənənəvi təhsildən təfəkkür məktəbinə" mövzusunda Respublika elmi-praktik konfransın materialları. Bakı,6 dekabr 2017, s.133-137

**Бахышева Ш.А.**

# ТЕОРЕТИКО – ПРАКТИЧЕСКИЕ ОСНОВЫ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ НА СТУПЕНИ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ

## РЕЗЮМЕ

Во введении диссертации обосновывается актуальность темы исследования, определены ее цель, объект, предмет, гипотеза и задачи. Освещаются методологические основы, положения, представленные к защите. Показана ее научная новизна, теоретическая и практическая значимость, излагается апробация.

Первая глава диссертации под названием «Постановка проблемы по развивающему обучению в дошкольных образовательных учреждениях» охватывает четыре параграфов. В этой главе раскрывается сущность понятия «развивающее обучение». Здесь отмечается, что развивающее обучение как один из активных форм обучения является полной педагогической системой. Оно создает условия для познавательного, интеллектуального развития ребенка, положительно влияет на опережающее развитие личности, подготавливает ребенка к успешной адаптации новой социальной среде. Для достижения успехов в педагогическом процессе при организации развивающего обучения должны учитываться и закономерности развития личности, и своеобразные качества индивида, и уровни развития детей. При этом создавая условия, необходимо использовать опережающие методы и технологии.

Во второй главепод названием «Научные основы развивающего обучения в дошкольных учреждениях» отмечается, что развивающее обучение как полная педагогическая система, учитывает взаимовлияние субъектов педагогического процесса, цели, содержание, методы и результаты обучения.

Третья глава посвящается развивающему обучению, которое играет большую роль в адаптации ребенка к детскому саду. Автор предлагает примерный план периода адаптации.

В четвертой главе под названием «Содержание развивающего обучения в дошкольных образовательных учреждениях» раскрываются вопросы определения учебной нагрузки детей дошкольного возраста, и считается необходимым сотрудничество медицинских

работников, педагогов, психологов и физиологов при педагогической экспертизе программ и методических пособий.

Умственная работоспособность является интегральным показателем функционального состояния ребенка и отражает его адаптацию к различным учебным деятельностям и образовательным нагрузкам.

В пятой главе под названием «Организация развивающего обучения в дошкольных образовательных учреждениях» указываются педагогические условия и принципы, обеспечивающие эффективность развивающего обучения с позиции нового педагогического мышления. Отмечается, что развивающая среда влияет формированию различных способностей и субъективных качеств ребенка, стимулирует различные виды активности, создает в группе благоприятный климат и активизирует самостоятельность.

В этой же главе даются и сравниваются результаты костатирующего, контрольного и обучающего эксперимента. Отмечается, что внедрение дидактической модели развивающего обучения дает возможность получать положительные результаты во всесторонней подготовке детей к школе и личностно-ориентированному развитию детей.

Диссертационная работа заканчивается заключением, списком использованной литературы и приложением.

**Sharafat Bakhishova**

# THEORETICAL AND PRACTICAL BASES OF DEVELOPING TRAINING ON THE LEVEL OF PRE-SCHOOL EDUCATION

## SUMMARY

The introduction of the thesis substantiates the urgency of the research, gives information about the subject and the object, goals and objectives, scientific novelty, research methods, discloses theoretical and practical significance of the work, presents main regulations put forward to defend.

The first chapter of the thesis is called “Formulation of the problem on developing training in preschool educational institutions”. It consists of four sections. This chapter reveals the essence of the concept of "developing education". It is noted that developing education as one of the active forms of learning is a complete educational system. It creates the conditions for cognitive and intellectual development of the child, has a positive effect on the advanced development of the personality, and prepares the child for successful adaptation to a new social environment. It is necessary to consider patterns of development of the personality and peculiar qualities of the individual, and the levels of development of the children in order to achieve success in the pedagogical process at the organization of developing training. Thus creating the conditions it is necessary to use forward-looking methods and technologies.

The second chapter is called the "Scientific basis of developing training in preschools institutions". This chapter notes that developing education as a complete educational system takes into account the interaction of subjects of pedagogical process, the objectives, content, methods and learning outcomes.

The third chapter is dedicated to developing training, which plays a great role in the child's adaptation to kindergarten. The author offers a rough plan of the adaptation period.

The fourth chapter, entitled "The content of developmental education in preschool educational institutions" reveals the issues of determining the teaching load of preschool children. The cooperation of medical workers, teachers, psychologists and physiologists at the pedagogical expertise of programs and teaching aids is considered one of the important factors.

Intellectual working capacity is an integral indicator of the child's functional state and reflects his adaptation to a variety of learning activities and educational load.

The fifth chapter, entitled "Organization of developmental education in preschool educational institutions", specifies pedagogical conditions and principles providing the effectiveness of developmental education from the standpoint of a new pedagogical thinking. It is noted that developing environment influences the formation of different abilities and subjective qualities of the child, stimulates the various kinds of activity, creates a favorable climate in the group and activates independence.

The results of ascertaining, control and teaching experiment are given and compared in this chapter. It is noted that the implementation of a didactic model of developing training makes it possible to obtain positive results in the comprehensive preparation of children for school and student-oriented development of children.

The dissertation work ends with the conclusion, a list of used literature and appendix.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙРЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Шарафат Арам кызы Бахышева**

# ТЕОРЕТИКО-ПРАКТИЧЕСКИЕ ОСНОВЫ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ НА СТУПЕНИ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ

5804.01 – Общая педагогика, история педагогики и образования

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени доктора наук по педагогике

**БАКУ - 2017**